QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 080 (5800) **3 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Mültikulturalizm bizim üçün həyat tərzidir"

*Prezident İlham Əliyev Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib*




**Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin qayğıkeş hamisidir**



7

**"Azərbaycan dinc birgə yaşayışın rəmzidir"**



5

**Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib**



6

**İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurulub**



6

**"Bakı Prosesi" mədəniyyətlərarası dialoq sahəsində təcrübəni bölüşmək üçün əvəzsiz platformadır**



9

**Carlos Maradiaga: "Azərbaycan tolerantlığın hökm sürdüyü məkandır"**



6

14

**"Meydan TV" erməni direktivlərini icra edir!**



9

**Kuani Şimon: Azərbaycan dünyanın mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilib**



12

**3 may - Beynəlxalq Media Azadlığı Günüdür!**

3 MAY World Press Freedom Day

World Association of Newspapers and News Publishers

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
3 may 2019-cu il

# "Mültikulturalizm bizim üçün həyat tərzidir"

*Prezident İlham Əliyev Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib*




"Əsrlər boyu Azərbaycan dini dözümlülük və müxtəlif millətlərin birgə yaşadığı torpaqdır"









***Mayın 2-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.***

Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksəksəviyyəli rəsmiləri iştirak edirlər.

2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Ötən müddət ərzində Forumun coğrafiyası çox genişlənib. Nəticədə tədbirə qoşulan qurumların sayı xeyli artıb. Budəfəki Foruma Latın Amerikası ölkələrindən tutmuş Səudiyyə Ərəbistanı, Böyük Britaniya kimi dövlətlərin təmsilçiləri qatılıblar. Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu öyrənilir. Forum üç istiqamətdə davam edəcək.

Dövlətimizin başçısı V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söyləyib.

Prezident İlham Əliyev bu mötəbər Foruma dünyanın 100-dən çox ölkəsindən 500-dən çox nümayəndənin qatıldığını bildirdi. Dövlətimizin başçısı Azərbaycanda əsrlər boyunca müxtəlif dinlərin, etnik qrupların birgə yaşadığını, ölkəmizdə daim dini tolerantlığın hökm sürdüyünü vurğuladı. Respublikamızda multikulturalizmin dövlət siyasətinin mühüm tərkib hissəsi olduğunu qeyd edən Prezident İlham Əliyev 2016-cı ilin Azərbaycanda multikulturalizm, 2017-ci ilin isə İslam həmrəyliyi ili elan edildiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, dünyada multikulturalizmin tendensiya halını alması beynəlxalq səviyyədə sülhə, tərəfdaşlığa vacib töhfə olardı.

Ardı Səh. 3

# "Mültikulturalizm bizim üçün həyat tərzidir"

## *Prezident İlham Əliyev Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib*

Əvvəli Səh. 2

Bu baxımdan, multikulturalizm və bu yöndə Azərbaycanda keçirilən digər silsilə beynəlxalq tədbirlər mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı vurğuladı ki, Bakıda keçirilən növbəti Forum çərçivəsində aparılacaq müzakirələr, fikir mübadiləsi ümumi məqsədlərə xidmət edəcək. "Bakı Prosesi"nin BMT və digər mötəbər təşkilatlar tərəfindən dəstəkləndiyini deyən Prezident İlham Əliyev burada qəbul edilən qərarların əhəmiyyətdən danışdı. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycanın müstəqillik baxımından gənc olmasına baxmayaraq, sürətlə inkişaf etdiyini diqqətə çatdıran Prezident İlham Əliyev dövlət siyasətinin dünya ölkələri ilə əməkdaşlığın və tərəfdaşlığın genişləndirilməsinə yönəldiyini vurğuladı. Ölkəmizin həyata keçirdiyi nəhəng layihələrə toxunan dövlətimizin başçısı boru kəmərləri vasitəsilə Xəzər dənizinin Qara dənizlə birləşdiyini, Avropanın enerji təhlükəsizliyinə xidmət edən bu kəmərlərin, həmçinin Azərbaycanın təşəbbüsü ilə yaradılan beynəlxalq nəqliyyat dəhlizlərinin həm də ölkələr və xalqlar arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət etdiyini de-



fəal olmalıyıq.

Foruma göstərilən geniş beynəlxalq dəstək bizi ruhlandırır. Bu gün Forumun həmtəşkilatçıları arasında dünyanın aparıcı beynəlxalq təşkilatları var və bizim birgə səylərimiz mədəniyyətlərarası dialoqun təşviqi işinə töhfə verir.

Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır. Əsrlər boyu Azərbaycan dini dözümlülük və müxtəlif millətlərin birgə yaşadığı torpaq olmuşdur.

Tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayən-

> "Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır"







di. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verdi və bu münaqişənin yaratdığı problemlərə baxmayaraq, Azərbaycanın sürətlə inkişaf etdiyini söylədi:

"Xatirimdədir, 8 il əvvəl ilk forum təşkil ediləndə biz onun bu qədər geniş beynəlxalq dəstək qazanacağını təsəvvür edə bilməzdik. 2011-ci ildə bizim mədəniyyətlərarası dialoqa həsr edilmiş dünya forumunun təşkil edilməsi təşəbbüsümüz tariximiz, coğrafiyamız və düşüncəmizdən qaynaqlanırdı ki, dünyanı təhlükəsiz etmək üçün biz sivilizasiyalar, mədəniyyətlər və müxtəlif etnik qrup və dinlərin nümayəndələri arasında dialoqun təşviqi sahəsində çox

dələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri qədim Şamaxı şəhərində yerləşir. Qafqazın ən qədim kilsələrindən biri olan Qafqaz Albaniyasına məxsus kilsə bizim qədim Şəki şəhərindədir.

Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir.

Ardı Səh. 4

# “Mültikulturalizm bizim üçün həyat tərzidir”

*Prezident İlham Əliyev Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib*







Əvvəli Səh. 3

Multikulturalizm bizim üçün həyat tərzidir. Bu söz nisbətən yeni olsa da, biz həmin ab-havada əsrlər boyu yaşamışıq. 2016-cı ilin Azərbaycanda “Multikulturalizm İli” elan olunması onu sübut edir ki, biz dünyanın diqqətini bu mühüm ideyaya cəlb etmək istəyirik. 2017-ci il isə “İslam Həmrəyliyi İli” elan edilib. Bu da bizim tarixi irsimiz, kökümüz və dünyaya açıq olduğumuzu nümayiş etdirən, rəmzi məna daşıyan addım idi. Hesab edirəm ki, bu meyillər dünyada üstünlük təşkil etsə, dünyada təhlükəsizlik, proqnozlaşdırıla bilmə və sülh bərqərar olar.

Bizim üçün multikulturalizm həm də siyasətimizin mühüm elementlərindəndir. Azərbaycanda multikulturalizm üzrə beynəlxalq mərkəz yaradılıb. Biz bu dəyərləri təşviq edir və multikulturalizmin böyük gələcəyinin olduğunu nümayiş etdiririk. Bilirik ki, bu mövzu ilə bağlı müxtəlif fikirlər var. Ancaq hesab edirəm ki, bizim forum və bu mövzuda Azərbaycanda və dünyanın digər yerlərində təşkil olunan çoxsaylı beynəlxalq tədbirlər multikulturalizm dəyərlərinin təşviqi ilə bağlı səylər göstərdiyimizi aydın nümayiş etdirir.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal miqyasda və əlbəttə, bizim ölkəmiz üçün mühüm beynəlxalq tədbirlərdən biridir. Son illər ərzində Azərbaycan çoxsaylı beynəlxalq təbirlərə ev sahibliyi edib. Dünya Dini Liderlərinin Forumunu, ənənəvi Bakı Humanitar Forumunu, yeddi dəfə Bakı Qlobal Forumunu təşkil etmişik. Nizami Gəncəvi Mərkəzi tərəfindən təşkil edilən həmin forum da siyasi inkişaf və mədəniyyət dialoqu mövzularının müzakirəsi üçün çox vacib platformadır. Digər tədbirlər də təşkil edilir və bununla da biz dünya ictimaiyyətinin diqqətini bu mühüm məsələlərə yönəltməyə çalışırıq.

Əminəm ki, bu gün və sabah Forum çərçivəsində aparılan müzakirələr problemləri aşkar edərək çıxışçılara fikirlərini bildirmək imkanı verməklə yanaşı, tərəfdaşlıq, həmrəylik və əməkdaşlığı gücləndirəcək, nəticədə mədəniyyətlər arasında körpü yaradacaq.”

## “Bu gün Forumun həmtəşkilatçıları arasında dünyanın aparıcı beynəlxalq təşkilatları var və bizim birgə səylərimiz mədəniyyətlərarası dialoqun təşviqi işinə töhfə verir”

Sonra qədim sivilizasiyalara və müasir Azərbaycandakı tolerantlıq mühitinə həsr edilmiş videoçarx nümayiş olundu.

Tədbirin moderatoru Forumun yüksək səviyyədə təşkilinə və dərin məzmunlu çıxışına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Qeyd etdi ki, “Bakı Prosesi” sülhsevər qüvvələri gücləndirməklə münaqişələri aradan qaldırmağa kömək edən prosesdir.

Forumda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos ilk dəfə möhtəşəm Bakı şəhərində olmasından son dərəcə məmnunluğunu ifadə etdi. Bildirdi ki, BMT-nin Sivilizasiyalararası Alyansı Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış “Bakı Prosesi”nin tərəfdaşıdır. “Birlik Bakı Prosesi”nin ruhudur”, - deyən Migel Moratinos əlavə etdi ki, Bakı BMT-nin Sivilizasiyalararası Alyansının habına çevrilə bilər. O, dünyada baş verən hadisələr fonunda bu beynəlxalq mötəbər tədbirin vaxtında keçirildiyini vurğuladı və Forumda müzakirə olunacaq məsələlərin əsas istiqamətlərindən danışdı.

UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif dünyada multikulturalizmin təbliğində və bəşəri dəyərlərin bərqərar olmasında Prezident İlham Əliyevin və ölkəmizin rolunu xüsusi vurğuladı. Bildirdi ki, bəşəriyyətin başlıca hədəfləri müsbət dəyişikliklər, insan hüquqları, dayanıqlı inkişaf və müxtəlifliyin təmin edilməsi olmalıdır. Nada Al-Naşif bu istiqamətdə UNESCO xətti ilə də silsilə tədbirlərin həyata keçirildiyini dedi, həmin mötəbər beynəlxalq qurumun mədəniyyətlərarası dialoqun daha səmərəli olmasına töhfələrini əsirgəmədiyini diqqətə çatdırdı.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin Bakı Forumunun yüksək səviyyədə təşkilinə və bu mühüm tədbirə dəvətə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi. O, bu tədbirin Qərblə İslam dünyası arasında mədəniyyətlərarası dialoqa mühüm töhfə olduğunu vurğuladı. İslam Əməkdaşlıq Təşkilatının Baş katibi mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun çox zəruri olduğunu və bütün ölkələrin bu istiqamətdə səylərini birləşdirmələrinin vacibliyini dedi. O, Prezident İlham Əliyevin mədəniyyətlərarası dialoqun gücləndirilməsi işinə daim sadiqlik nümayiş etdirdiyini vurğuladı və Foruma uğurlar arzuladı.

Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni Azərbaycanın mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biri olduğunu bildirdi. O, “Bakı Prosesi”nin uğur tarixçəsinə çevrildiyini xüsusi vurğuladı. Avropa Şurasının dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun gücləndirilməsi, gənclərin maarifləndirilməsi və digər istiqamətlərdə kompleks iş apardığını deyən Qabriella Battaini-Draqoni bu baxımdan Bakı Forumunun mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırdı.

ISESCO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri Bakı Forumunun dünyanın ən nüfuzlu tədbirlərindən biri olduğunu dedi. O, indiki dövrdə dünya liderlərinin siyasi iradə göstərməsinin vacibliyini diqqətə çatdırdı, bu baxımdan Prezident İlham Əliyevin nümunəvi mövqe nümayiş etdirdiyini xüsusi vurğuladı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq birliyin ədalətsiz mövqe tutduğunu, bunun yolverilməz olduğunu deyən Əbdüləziz Osman əl-Tuveycri dünyanı Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına dəstək verməyə çağırdı və Forumun işinə uğurlar arzuladı.



# "Bakı Prosesi" Avropa Şurası üçün də uğurlu platformadır

*Prezident İlham Əliyev Avropa Şurasının Baş katibinin müavinini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqonini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni Azərbaycanın Avropa Şurasının layiqli üzvü olduğunu bildirərək "Bakı Prosesi"ni Avropa Şurası üçün də uğurlu platforma adlandırdı. 2008-ci ildən bu prosesin genişlənərək mühüm hərəkata çevrildiyini deyən qonaq qeyd etdi ki, mədəniyyətlərarası dialoq insanların həyatını dəyişə biləcək vacib prosesdir. "Bakı Prosesi"nin başladığı dövrdən diplomatik münasibətlərdə yenilik, müdrik və cəsarətli addım olduğunu deyən Avropa Şurasının Baş katibinin müavini bu prosesin davamlı olması üçün verdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoninin Forumun açılış mərasimində Azərbaycan haqqında söylədiyi fikirləri yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Forumda vacib tövsiyələr irəli sürüləcəyinə əminliyini ifadə etdi, bu cür önəmli beynəlxalq toplantının mədəniyyət sahəsində körpülərin, dialoqun qurulmasına mühüm töhfə verdiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzv olduğunu qeyd edərək ölkəmizin "Bakı Prosesi" vasitəsilə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqu təşviq etdiyini bildirdi. Hazırkı şəraitdə "Bakı Prosesi"nin coğrafiyasının genişləndirilməsinin zəruriliyini qeyd edən dövlətimizin başçısı Azərbaycanın sivilizasiyalararası dialoqu təşviq etməklə bərabər, sivilizasiyalardaxili dialoqu da dəstəklədiyini dedi. Görüşdə Avropa Şurasının gündəliyində duran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 30 avqust tarixli 284 nömrəli Fərmanında və 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Ailə Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1558-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1535-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 7 avqust tarixli 1573 nömrəli, "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 6 iyun tarixli 119 nömrəli və "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

## "Azərbaycan dinc birgə yaşayışın rəmzidir"

*Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymini qəbul edib. AZƏRTAC xəbər verir ki, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymi V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini qeyd edərək "Bakı Prosesi"nin artıq təsisatlanmış bir mexanizmə çevrildiyini söylədi. Bu gün Azərbaycanın nəqliyyat qovşağı olmaqla yanaşı, dialoq və əməkdaşlığın da qovşağına çevrildiyini qeyd edən Yusif bin Əhməd Əl-Osaymin Azərbaycanı dinc birgə yaşayışın rəmzi kimi xarakterizə etdi.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə Forumda iştirakına görə təşəkkürünü bildirən Prezident İlham Əliyev qonağın Forumun açılış mərasimində söylədiyi fikirlərin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı "Bakı Prosesi"nin mühüm beynəlxalq platforma olduğunu dedi. Bu prosesin 10 ildən artıq davam etdiyini və bu gün dünyada mədəniyyətlərarası əlaqələrin və dinlərarası əməkdaşlığın qurulmasında ən səmərəli mexanizmlərdən biri kimi tanındığını diqqətə çatdırdı. Görüşdə İslam dünyasında birliyin və həmrəyliyin vacibliyi qeyd olundu və Azərbaycanın bu istiqamətdə gördüyü işlər təqdir edildi, İslam Əməkdaşlıq Təşkilatının gündəliyində duran məsələlərə dair fikir mübadiləsi aparıldı.

## "Bakı dünyada dialoq mərkəzi kimi tanınır"

*Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosa V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakına və ölkəmiz haqqında söylədiyi xoş sözlərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə yaxından əməkdaşlıq etdiyini vurğuladı.



2007-ci ildə ATƏT-in fəaliyyətdəki sədri olarkən Azərbaycan Prezidenti İlham Əliyevlə ilk görüşdən danışan qonaq həmin söhbət zamanı Azərbaycanın dövlət başçısının söylədiyi fikirləri bu gün də xatırladığını dedi. Forumun təşkilinə görə minnətdarlığını bildirən Migel Anxel Moratinos Bakının dünyada dialoq mərkəzi kimi tanındığını, "Bakı Prosesi"nin önəmli bir platformaya çevrildiyini və zamanında irəli sürülmüş təşəbbüs olduğunu vurğuladı. Bildirdi ki, bu prosesin coğrafiyasının genişləndirilməsi və Azərbaycanın multikulturalizm ənənələrinin təşviqi böyük əhəmiyyət daşıyır. Söhbət zamanı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansına verdiyi dəstək yüksək qiymətləndirildi.

# Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib



Mayın 2-də Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb.

Baş nazirin müavini bildirib ki, Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşlarımızla bağlı məsələni sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Dövlətimizin başçısı tərəfindən verilən tapşırıqlar icra olunur, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində vacib addımlar atılır. Əli Əhmədov paytaxt ərazisində yerləşən məcburi köçkünlərin məskunlaşdığı binaların nəzarətdə saxlanılmasının vacibliyini vurğulayıb.

İclasda paytaxt ərazisində məcburi köçkünlərin məskunlaşdığı binalarda yoxlamalar aparan Fövqəladə Hallar Nazirliyinin arayışı dinlənilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bu kateqoriyadan olan insanların kommunal problemlərlə üzləşməməsi üçün hazırda aidiyyəti qurumların komitə ilə birgə xüsusi komissiyanın tərkibində işlədiyini bildirib. Sədr komissiyanın artıq bir neçə binaya baxış keçirdiyini və mövcud vəziyyətlə bağlı rəy hazırladığını deyib.

Bu məsələnin dövlətimizin başçısının nəzarətində olduğunu vurğulayan Baş nazirin müavini komissiyaya qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyəti, həmin binalarda elektrik və qaz xətlərində olan nasazlıqların aradan qaldırılması istiqamətində görülən işlərlə bağlı tez bir zamanda Nazirlər Kabinetinə məlumat verilməsini tapşırıb.

# İrfan Çiftçi: “Forum Azərbaycanın təbliği baxımından əhəmiyyətlidir”



“Artıq 3-cü dəfədir ki, Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edirəm. Mədəniyyətlərarası dialoq mənim əsas ixtisasım olduğu üçün bu mövzularda aparılan müzakirələr mənim üçün çox vacib və əhəmiyyətlidir”. Bu fikirləri SİA-ya açıqlamasında Türkiyənin Azərbaycandakı səfirliyinin mədəniyyət və tanıtım müşaviri İrfan Çiftçi deyib. O bildirib ki, mədəniyyətlərarası dialoq mövzuları UNESCO-nun, BMT-nin ikiqütblü dünyada gedən soyuq müharibələrin qarşısının alınması üçün vasitədir. Bu cür dialoqların Azərbaycanda keçirilməsinin faydalarından söz açan İ.Çiftçi söyləyib ki, forum ölkənizin dünyaya açılmasında önəmli qapıdır: “Bununla yanaşı forum Azərbaycan mədəniyyətinin daha da önə çıxması, təbliği baxımından əhəmiyyətlidir”.

Forumda müzakirə olan gender, multikultural, ekstremizm və digər mövzuların bütün dünya üçün mühüm olduğunu dilə gətirən müşavir qeyd edib ki, nədənsə forumda çıxış edənlərin 70 faizi ötən illərdə söylənən fikirləri təkrar edir: “Hesab edirəm ki, forumda iştirak edən ölkələr bundan əvvəlki forumlarda müzakirə olunanlar haqqında məlumatlı olmalı, problemlərin həlli istiqamətində daha yeni təkliflər, fərqli fikirlər ortaya qoymalıdırlar. Bütün ölkələrdə gender, islamofobiya, terrorla bağlı problemin kökü eybi məsələlərə bağlıdır. Bu baxımdan yeni fikirlər dünya cəmiyyətini narahat edən məsələlərin həllində daha faydalı ola bilər”.

***Nailə Məhərrəmova***

# “Bakı prosesi ölkələr arasında əlaqələrin genişlənməsinə mühüm töhfədir”



“Azərbaycanla Macarıstan arasında mədəni ticari, iqtisadi və digər sahələri əhatə edən əməkdaşlıq əlaqələri var. İki ölkə arasında mühüm mübadilə tədbirləri həyata keçirilir”. Bu fikirləri SİA-ya açıqlamasında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Macarıstanda olan iştirakçısı Marton Schoberl deyib. İki ölkə arasında tələbə mübadiləsinin aparıldığını dilə gətirən M.Schoberl bildirib ki, Macarıstanda çoxlu sayda azərbaycanlı tələbələr təhsil alır. Azərbaycanda ikinci dəfə səfərdə olduğunu deyən Forum iştirakçısı hesab edir ki, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu iki ölkə arasında, ümumilikdə isə bütün ölkələr arasında əlaqələrin genişləndirilməsinə mühüm töhfə verəcək: “Bu gün Forumun ilk günü olsa da artıq maraqlı çıxışlar dinləmişik. Bakı prosesinin sabah da eyni maraqla davam edəcəyini düşünürəm”. Bakı haqqında təəssüratlarını bölüşən qonaq qeyd edib ki, Forumda iştirak etməsinin əsas səbəbi Bakı ilə bağlı yüksək marağının olmasıdır: “Bakı inkişaf etmiş ölkələrin paytaxtından seçilmir. Son illər Bakının daha da inkişafı, gözəlləşməsi və müasirləşməsi bunu bizə deməyə əsas verir”.

# İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurulub



Ümummilli liderimiz Heydər Əliyev deyib: “Bədən tərbiyəsi və idmanla geniş məşğul olan xalq, ölkə həmişə fiziki və mənəvi cəhətdən sağlam olur”. Ulu Öndərin tövsiyələri əsas tutularaq Naxçıvan Muxtar Respublikasında idman sağlam gənc nəslin yetişməsində əsas amil kimi götürülür. Müasir idman infrastrukturu yaradılır, mövcud idman obyekt və qurğularından səmərəli istifadə diqqətdə saxlanılır. Görülən işlərin davamı olaraq, İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurulub.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Olimpiya İdman Kompleksində görülən işlərlə tanış olub.

Məlumat verilib ki, kompleksdə bütün zəruri infrastruktur yenilənib, tavan və döşəmələr dəyişdirilib, işıqlandırma, havalandırma və istilik sistemləri yenidən qurulub. Hər biri 220 tamaşaçı tutumu olan iki idman zalında mini futbol, basketbol, voleybol, güləş, karate, boks, ağır atletika və digər idman növləri üzrə yarış və məşqlərin keçirilməsi üçün lazımi şərait yaradılıb. Yarış nəticələrinin göstərilməsi üçün elektron məlumat lövhəsi qurulub. Kompleksdə idman ləvazimatlarının satış bölməsi və bufet istifadəyə verilib, iş, soyunub-geyinmə və digər xidməti otaqlarda lazımi şərait yaradılıb.



Ali Məclisin Sədri kompleksin imkanlarından səmərəli istifadə olunması və yaradılan şəraitin qorunub saxlanılması barədə tapşırıqlar verib.

# Carlos Maradiaga: “Azərbaycan tolerantlığın hökm sürdüyü məkandır”



“Azərbaycan tolerantlığın hökm sürdüyü məkandır. Asiya ölkələrinə çox səyahət etmişəm onların mədəniyyətləri haqqında məlumatlara malikəm. Lakin Azərbaycan mədəniyyəti haqqında çox məlumatım olsa da şəhərinizə ilk səfərimdir. Azərbaycanda gördüklərim eşitdiklərimi həqiqətən də doğrultdu”. Bu fikirləri SİA-ya açıqlamasında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Hondurasdan olan iştirakçısı Carlos Maradiaga deyib. O bildirib ki, Azərbaycan yüksək mədəniyyətə malik ölkədir: “Forum yüksək səviyyədə təşkil olunub. Burada diqqəti çəkən əsas məsələlərdən biri hər ölkə, din, dil, irqi təmsil edən nümayəndələrin olmasıdır. Hər kəs forumda aparılan müzakirələrdə öz fikirlərini sərbəst şəkildə ifadə edir. Fərqli fərqli ölkələr bir-biri ilə təcrübə mübadiləsi aparır, biri digərindən nəsə öyrənir. Bu, vahid platforma üçün çox mühüm xüsusiyyətdir”.

C.Maradiaga qeyd edib ki, Azərbaycan mədəniyyətlərin qarışmasına çox mühüm töhfə verir: “Bakı İpək yolunun üzərində yerləşir. Burada Şərq və Qərb mədəniyyətləri qovuşur. Bu baxımdan Azərbaycanda həm köhnə, həm də müasir mədəniyyəti görmək mümkündür”.

# DSX-nin Xüsusi məktəbinə qəbul üçün keçirilmiş imtahanın nəticələri açıqlanıb



Bu il aprelin 6-da Dövlət Sərhəd Xidmətinin (DSX) Xüsusi məktəbinə qəbul üçün keçirilmiş imtahanın nəticələrinin qiymətləndirilməsi başa çatıb.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Xüsusi məktəbə qəbul üçün keçirilmiş imtahanda 1227 nəfər iştirak edib. Namizədlərin tibbi və digər yoxlamalara cəlb ediləcəyini nəzərə alaraq ən yüksək bal toplamış 101 nəfər növbəti mərhələyə keçirilib. Qəbul planına uyğun olaraq, bütün yoxlamaları uğurla keçən namizədlər bal ardıcıllığına görə Xüsusi məktəbə qəbul ediləcəklər. Bununla yanaşı, övladlarının imtahan materialları ilə şəxsən tanış olmaq istəyən vətəndaşlar (012) 554-92-44 telefon nömrəsi ilə əlaqə saxlaya və ya Xüsusi məktəbə yaxınlaşaraq müraciət edə bilərlər.

# Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin qayğıkeş hamisidir

*İlham Əliyev: "Sosial məsələlər arasında, əlbəttə ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir"*

***Ermənistanın işğalçılıq siyasəti nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşən 1 milyondan artıq azərbaycanlının həyat şəraitinin yaxşılaşdırılması, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlarla paralel şəkildə həyata keçirilir. Xüsusilə, son 16 il ərzində qaçqın və məcburi köçkünlər üçün respublikanın 30-dan artıq şəhər və rayonunda bütün sosial-texniki infrastruktura malik 102 müasir qəsəbə salınıb, ki, bunun da 3-ü ötən il istifadəyə verilib. Ötən il 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilib və təqdim olunub. Bununla bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib. Bu Prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlərə diqqət və qayğısının reallığıdır. Ölkə Prezidentinin rəhbərliyi altında hər il bu istiqamətdə müvafiq addımlar atılır, qaçqın və məcburi köçkünlər, Qarabağ əlilləri, ailə qayğısından məhrum olmuş gənclər və digər bu kateqoriyadan olan vətəndaşların problemləri öz həllini tapır.***





## Görülən işlər, uğurlu nəticələr, real faktlar...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı qeyd edib ki, əvvəlki illərdə olduğu kimi, 2019-cu il də ölkəmiz üçün uğurlu il olacaq. Dövlət başçısı bir çox önəmli məsələlərə aydınlıq gətirərək bildirib ki, bütün sahələrdə uğurlu inkişaf olduğu kimi, məcburi köçkünlərin də problemləri diqqət mərkəzində olacaq: "Sosial məsələlər arasında, əlbəttə ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il artıq 810 məcburi köçkün ailəsi yeni müasir qəsəbəyə köçürülür. Bu proses davam etdiriləcək. Bu, bizim ən prioritet məsələlərimizdən biridir. Bu məsələyə biz daim diqqət göstəririk".

Bəli, son 16 il ərzində ölkə Prezidenti İlham Əliyev tərəfindən şəhid ailələrinin, Qarabağ əlillərinin, məcburi köçkünlərin, hərbçilərin sosial problemlərinin həlli istiqamətində uğurlu addımlar atılıb. Təsadüfi deyil ki, iqtisadi inkişaf tempinə görə dünyanın gündəmində olan Azərbaycan, həm də sosial dövlət kimi xarakterizə olunur. Bu, o deməkdir ki, dövlət siyasətinin bütün istiqamətlərinin və sahələrinin mərkəzində məhz Azərbaycan vətəndaşı dayanır. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, dövlət qayğısına ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənir.

Şəhid ailələri, Qarabağ əlilləri, məcburi köçkünlər, hərbçilər üçün tikilən mənzillərin təqdimat mərasimində hər zaman Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəxsən iştirak edir, onlarla görüşərək qayğıları ilə maraqlanırlar. Keçirilən görüşlərdə çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, məcburi köçkünlərin problemləri sosial məsələlər arasında ön plandadır: "Məcburi köçkünlərin problemləri sosial məsələlər arasında ön plandadır. Son illərdə bu istiqamətdə çox böyük addımlar atılıb. Təkcə bu il 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilib istifadəyə verilib". "Bütün köçkün ailələrinin normal şəraitlə təmin olunacaqlarını" deyən Prezident əlavə edib ki, hər bir köçkün bir arzu ilə, bir amalla yaşayır - tezliklə öz doğma torpağına qayıtsın: "İşğal altında olan bütün torpaqlar azad ediləndən sonra orada şəhərlər, kəndlər yenidən qurulacaq".

Dövlət başçısı, müşavirədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxunaraq bildirib ki, bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir: "Prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Başqa yanaşma yoxdur. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Onu da bildirməliyəm ki, danışıqlar formatı dəyişməz olaraq qalır. Baxmayaraq ki, bəzi cəhdlər olub, ancaq bizim fəaliyyətimiz nəticəsində bu cəhdlərin qarşısı alınıb. Həmçinin Minsk Qrupunun həmsədrləri tərəfindən martın 9-da verilmiş açıqlama ünvanlıdır, birmənalıdır və bir daha onu göstərir ki, münaqişənin iki tərəfi var. Ona görə hesab edirəm ki, bu mövzu artıq öz həllini tapıb. Biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq, ölkəmizi, ordumuzu gücləndirəcəyik. Bu ilin əvvəlindən bu istiqamətdə də böyük işlər görülüb və görüləcək".

Məhz dövlət başçısının sözügedən məsələyə diqqət və qayğısının nəticəsidir ki, ötən il dövlət başçısının iştirakı ilə Bakının Qaradağ rayonunda Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi keçirilib. Bunun ardınca isə bu məqsədlər üçün Prezidentin ehtiyat fondundan 20 milyon manat vəsait ayrılıb. Eyni zamanda, dekabrın 17-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak edib.

Həmçinin, Qobu qəsəbəsində özəl sektor tərəfindən inşa edilən mindən çox mənzil məcburi köçkünlərə təqdim olunub. Sumqayıt şəhərində, Kürdəxanı, Mehdiabad, Ramana, Masazır qəsəbələrində, Tərtər, Qaradağ rayonlarında məcburi köçkünlər üçün binalar, evlər tikilir və onların sərəncamına verilir. İl ərzində həm Prezident İlham Əliyev, həm Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin, hərbçilərin sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı çox vacib layihələr həyata keçirilir.

Ümumiyyətlə, son 16 ildə Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur.

## Prezidentin məcburi köçkünlərlə bağlı imzaladığı Sərəncam cəmiyyətimizdə yüksək qiymətləndirilir

Azərbaycan Prezidentinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətlərin artırılması ilə bağlı Sərəncamına əsasən məcburi köçkünlərə ödənilən vəsaitin həcmi 50 faiz artırılıb. 2017-ci ilin əvvəlində bu rəqəm 36 manat, 2018-ci ildə 40 manat, son dəyişikliklərdən sonra isə bu rəqəm 50 faiz artırılaraq 60 manata çatdırılıb. Bununla da, məcburi köçkün ailələrinin hər bir üzvünə kommunal xərclərin ödənilməsi üçün dövlət tərəfindən 60 manat vəsait ödəniləcək. Bu, o deməkdir ki, əgər ailədə 4 nəfər ailə üzvü varsa, onlar 240 manat dövlət büdcəsindən aylıq olaraq vəsait əldə etmək imkanı qazanacaq. Əvvəllər bu rəqəm 160 manat idisə, aprel ayında bu rəqəm 240 manat olacaq.

Birdəfəlik aylıq müavinətin artırılması məcburi köçkünlərin sosial təminatı baxımından çox vacibdir. Bu, məcburi köçkün ailələrinə dəstək kimi qiymətləndirilməlidir. Artımlar ailə üzvlərinin sayı çox olan məcburi köçkünlərə dövlət büdcəsindən daha çox vəsait əldə etmək imkanı verəcək. Bu kontekstdə son addım Azərbaycanda həyata keçirilən sosial islahatların bir elementi kimi qiymətləndirilməlidir. Müavinətlərin artırılması həssas qrup olan məcburi köçkünlərin sosial təminatının daha da yaxşılaşmasına dəstəkdir. Məcburi köçkünlər dövlət başçısının bu qərarını yüksək dəyərləndirir. Bu insanlar inanırlar ki, Cənab Prezidentin qətiyyətli siyasəti nəticəsində doğma torpaqlarına qayıdacaqlar.

**RƏFİQƏ KAMALQIZI**



# Əbədiyaşar lider!

***Azərbaycan xalqı üçün Ulu Öndər Heydər Əliyevin doğum günü həm də ona görə əzizdir ki, bütün şüurlu həyatını xalqına, onun tərəqqisinə və gələcəyinə həsr edən bu dahi insan ürəklərdə yad olunur, milyonlarla azərbaycanlının qəlbindəki sevgisi və hörməti bir daha öz təsdiqini tapır. Bu dahi insanla təmasda olduğum hər bir görüşü bu gün də əziz xatirə kimi xatırlayıram. Xüsusi ilə hələ 1992-ci ilin soyuq noyabr ayında Naxçıvanda Ulu Öndərlə görüşüm, indi də gözlərimin qarşısındadır. Öz xalqını bəladan qurtarmaq üçün qayğılı bir el oğlunun müdrik simasını necə unuda bilərəm?***

Ulu Öndər Heydər Əliyev fenomeni təkcə bir məkanla, Azərbaycanla məhdudlaşmır. O, hələ sağlığında əfsanələşən, siyasət olimpini fəth etmiş nadir şəxsiyyətlərdən biridir. Biz dünyanın məşhur simalarının bu dahi şəxsiyyət haqqında necə heyranlıqla, ehtiramla danışdıqlarının şahidiyik. Dahi Öndər Heydər Əliyev siyasət aləminin patriarxı, tarixin gedişinə təsir göstərmək qüdrətinə, polad iradəyə malik yenilməz şəxsiyyət kimi səciyyələndirilir.

Ulu Öndər Heydər Əliyev zəkası məkan və zaman anlayışı tanımayıb. Naxçıvanda sadə bir ailədə dünyaya gələn bu böyük insanın siyasət olimpinə yolu təlatümlərdən, çətin sınaqlardan, aramsız mübarizələrdən keçib. Heydər Əliyev ömrü insan ruhunun qüdrətinə, yenilməzliyinə, qalib gəlmək əzminə parlaq nümunədir. Ulu Öndərin doğum günündə onun keçdiyi ömür yolu kitab kimi vərəqlənir, xatirələr dilə gəlir.

Bu Dahi Şəxsiyyətin xalqı qarşısında daha bir müstəsna xidməti Cənab İlham Əliyev kimi oğul yetişdirməsi, özündən sonra layiqli varis qoymasıdır. Yeni əsrin lideri olan Prezident İlham Əliyev Azərbaycana bacarıqla rəhbərlik edir, praqmatik siyasəti ilə ölkəmizi irəli aparır. Xalq dövlətin sükanının etibarlı əllərdə olduğuna əmindir, öz Prezidentinə inanır və onun arxasınca inamla gedir.



***Şirvan Əbilov,***
***Prezident təqaüdçüsü***

AZƏRTAC-ın arxivində Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif mərhələlərini əks etdirən çoxsaylı fotoşəkillər qorunub saxlanılır. Bu fotolardan nurlu, bəzən gülümsər, bəzən qayğılı və düşüncəli sima boylanır. Biz Heydər Əliyevi ailə üzvləri arasında, iş başında, müxtəlif tədbirlərdə, insanlar arasında görürük. Bu tarixi fotolar bizi illər arxasına çəkib aparır, ötən günlərə qaytarır. Baxıb təsirlənirik, baxıb qürur duyuruq.

## Ulu Öndər Heydər Əliyev respublika rəhbərliyinə gəlişi ilə həyatın ritmini dəyişdi

Ötən əsrin 70-ci illərində Azərbaycan keçmiş SSRİ-nin geridə qalmış ucqarlarından biri hesab olunurdu. O vaxtadək respublikaya rəhbərlik edənlər bununla barışır, vəziyyəti dəyişməyə cəhd göstərmirdilər. Bu xoşagəlməz tendensiya Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumuna qədər - Heydər Əliyev birinci katib seçilənədək davam etdi.

Dahi Öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi ilə həyat ritmi dəyişdi: bütün sahələrdə görünməmiş canlanma və inkişaf, nəhəng tikinti-quruculuq işləri başlandı. Bakıda o dövr üçün nadir müəssisələr (məsələn, məişət kondisionerləri, dərin dəniz özülləri zavodları), paytaxtımıza bu gün də yaraşıq verən ictimai binalar ("Gülüstan" sarayı, Heydər Əliyev Sarayı) tikildi, nəhəng yaşayış massivləri (Yeni Əhmədli, Günəşli) salındı. Kənd təsərrüfatı məhsulları, xüsusən pambıq, üzüm, tərəvəz istehsalı dəfələrlə artdı. Bunun nəticəsi olaraq, əhalinin güzəranı da yaxşılaşdı, bir çox sosial layihələr həyata keçirildi. Siyasətşünaslar bu illəri haqlı olaraq Azərbaycanın dirçəliş və yüksəliş dövrü kimi səciyyələndirirlər.

Yaşlı nəslin yadında olar: Heydər Əliyevə qədər respublikanın birinci şəxsi, eləcə də digər vəzifə sahibləri kabinetdən kənara nadir hallarda çıxırdılar. Onlardan fərqli olaraq, Heydər Əliyev bölgələrə tez-tez səfərlər edir, insanlarla bilavasitə ünsiyyət qurur, onların problem və qayğıları ilə şəxsən maraqlanırdı. Onun alimlər, yazıçılar, mədəniyyət xadimləri ilə görüşləri ənənəyə çevrilmişdi. Bu ağ-qara fotolar həmin anları, Ulu Öndərin birinci hakimiyyəti dövrünün müəyyən məqamlarını özündə yaşadır, bizi xəyalən həmin illərə qaytarır.

## Heydər Əliyevin həyatının Moskva və Naxçıvan dövrü

Ulu Öndər Heydər Əliyev Siyasi Büronun üzvü seçiləndə, bir qədər sonra Moskvaya vəzifəyə gedəndə Azərbaycanda insanlar çox sevinir, bir-birini təbrik edirdilər. Bu, iki amillə izah olunurdu. Birincisi, azərbaycanlının SSRİ kimi nəhəng dövlətin hakimiyyət iyerarxiyasında yüksək mövqe və vəzifə tutması həqiqətən qürurverici hadisə idi. İkincisi, Heydər Əliyevin siyasi elitanın zirvəsinə yüksəlməsi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi Azərbaycanın xeyrinə işləyə bilərdi: onun bir əli Vətənin üstündə olacaqdı. İnsanlar bu düşüncələrində yanılmadılar. Heydər Əliyev artan nüfuzundan və mərkəzi hökumətdə ikinci şəxs olaraq vəzifə imkanlarından istifadə edərək, İttifaq büdcəsindən Azərbaycana mümkün qədər çox vəsait ayrılmasına, bir sıra irimiqyaslı layihələrin Bakıya salınmasına nail oldu. İttifaq miqyasında gördüyü nəhəng işlər, fitri təşkilatçılıq bacarığı onun şöhrətini getdikcə artırırdı. Obyektiv siyasətçilər hesab edirdilər ki, Heydər Əliyev Baş katib vəzifəsinə ən yaxşı namizəddir.

Sonra məlum hadisələr baş verdi. Mixail Qorbaçov siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə münasibət dəyişdi, ona qarşı həsəd və qısqanclıq hissləri baş qaldırdı. Ölkə rəhbərliyi ilə aralarında yaranmış ixtilaflar və ciddi fikir ayrılığı səbəbindən istefa verdi. Bununla eyni vaxtda Azərbaycanın qara günləri başladı. Onda da, indi də bir çoxları əminliklə deyirlər ki, əgər o vaxt Heydər Əliyev rəhbərlikdə olsaydı, nə Qarabağ, nə də 20 Yanvar hadisələri baş verməzdi.

Bu ağır günlərdə Ulu Öndər vətəni Azərbaycana qayıtdı. Kremlin köləsi olan rəhbərlik Onun Bakıya yolunu kəsdiyi üçün doğulub boya-başa çatdığı Naxçıvana üz tutdu. Həmin vaxt çəkilmiş fotoşəkillərdə əhalinin Onu necə coşqu ilə qarşıladığı, Naxçıvan həyatının bəzi anları əksini tapıb. Heydər Əliyev ona bəslənilən ümidləri doğrultdu: muxtar respublikanı erməni təcavüzündən, siyasi təlatümlərdən qorudu. Üçrəngli bayrağımız 70 ildən sonra ilk dəfə məhz Naxçıvanda ucaldıldı. Onun muxtar respublikaya rəhbərliyi dövründə qəbul olunmuş taleyüklü qərarlar Azərbaycan tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. 1990-cı illərin əvvəllərində azadlıq və nicat küləkləri məhz Naxçıvandan əsirdi. Ağır günlər keçirən xalq gözünü Heydər Əliyevə dikmişdi.

## Heydər Əliyev: xalqın xilaskarı və müstəqil Azərbaycanın banisi

1993-cü ildə Azərbaycan tufanlı dənizdə yelkənsiz gəmiyə bənzəyirdi. Dalğalar bu gəmini hər an qayalara çırpıb batıra bilərdi. Son dərəcə mürəkkəb və ağır vəziyyətdə xalqın təkidli çağırışları ilə hakimiyyətə qayıdan Heydər Əliyev məsuliyyəti və xilaskarlıq missiyasını cəsarətlə çiyinlərinə götürdü. Azərbaycanı çətin sınaqlardan, siyasi fırtınalardan sağ-salamat çıxararaq sakit limana gətirə bildi. Separatizmin, dövlət çevrilişi cəhdlərinin qarşısını qətiyyətlə alaraq ölkəni parçalanmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Yenicə yaranmaqda olan nizami ordu ermənilərin torpaqlarımıza aramsız hücumlarını dayandıra bildi, Qarabağ müharibəsində atəşkəsə nail olundu.

Çətinlik isə bir deyildi, iki deyildi. Dövlət xəzinəsi tamam boşalmışdı. Ölkə iqtisadiyyatı dərin böhran yaşayırdı. Sənayeni, kənd təsərrüfatını dirçəltmək uzun illər tələb etdiyindən qeyri-adi həll variantları tapmaq lazım idi. Opponentlərindən fərqli olaraq, Heydər Əliyev uğur açarının harada olduğunu bilirdi. Bilirdi ki, ölkəni düşdüyü çətin vəziyyətdən, dərin iqtisadi-sosial böhrandan yalnız neft gəlirləri ilə çıxarmaq olar. Neft isə dənizin dibində idi, onu çıxarmağa Azərbaycanın gücü çatmazdı. Ölkədə siyasi-ictimai sabitliyin hələ yetərincə möhkəm olmadığı bir vaxtda xarici şirkətlər riskə gedib Azərbaycan neftinə sərmayə qoyacaqdılarmı? Heydər Əliyev "Amoko", "BP", "Yunokal", "LUKoyl", "Statoyl", "Ekson", "İtoçu" kimi nəhəng şirkətləri inandırmağı bacardı. Bu inamın əsasında təbii ki, ilk növbədə Heydər Əliyev şəxsiyyətinə olan etibar dayanırdı. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın inkişafının, gələcək uğurlarının başlanğıc nöqtəsi oldu. Bu müqavilədən əldə olunan ilk neftin Ulu Öndərdə necə böyük sevinc hissi doğurduğu yadınızdadırmı: Onun gözləri gülür, neftli əlini üzünə çəkir və bu unudulmaz an fotoobyektivin yaddaşına köçür.

Bu gün Dahi Öndər Heydər Əliyev irsini davam etdirən bacarıqlı Prezident İlham Əliyevin gördüyü işlərə baxdıqca, Ulu Öndərin illər əvvəl bu inkişafın və tərəqqinin əsasını qoyduğu gərgin əmək və zəhmət bir anlıq göz önünə gəlir. Bu gün Azərbaycan Heydər Əliyev siyasətinin nəticəsində tərəqqi və inkişaf yolundadır. Bu xalq yaşadıqca, neçə-neçə əsrlərdən sonra da qəlblərdə həmişə Heydər Əliyev sevgisi, Heydər Əliyev dühası öz yerini qoruyacaq!

# İslamofobiya müsəlman ölkələrinə qarşı yönəlmiş məkrli və düşünülmüş siyasətin təzahürüdür




Mayın 2-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "İslamofobiyanı dayandırın, dinlərarası maariflənmə ilə stereotipləri aradan qaldırın və kompleks müxtəliflikləri idarə edin" mövzusunda sessiya keçirilib.

AZƏRTAC xəbər verir ki, sessiya İtaliya İslam Dini Cəmiyyətinin prezidenti Yahya Pallavicininin moderatorluğu ilə keçirilib.

Tədbirdə çıxış edən "Jamiyah Singapore" təşkilatının prezidenti Mohd Hasbi Abu Bakar, Finlandiyanın Milli Təhsil İdarəsinin nümayəndəsi Soad Onniselka, Azərbaycan İlahiyyat İnstitutunun prorektoru Aqil Şirinov, Albaniyanın Təhsil, İrs və Turizm İnstitutunun direktoru Ramiz Zekaj, Hozes İnstitutunun direktoru Yacine Hilmi və İspaniyanın Azzaqra Mədəniyyət Assosiasiyasının direktoru Antonio Romero dünyada islamofobiyanın fəsadları və ona qarşı mübarizə yollarından danışıblar.

Bildirilib ki, islamofobiya kimi təhlükəli tendensiyanın artması dünyanın bu günü və gələcəyi üçün ciddi narahatlıq doğurur. Təəssüf ki, hazırda dünyada islamofobiya meyilləri artmaqdadır. İslamofobiya anlayışı immiqrantlara və etnik azlıqlara qarşı münasibətdə ksenofobiya və irqçilik mənasında başa düşülməlidir. Beləliklə, islamofobiya ilə mübarizə, həm də bütün səviyyələrdə irqçiliklə mübarizə kimi başa düşüləcək.

Vurğulanıb ki, bu gün dünyada dini ayrı-seçkilik güclənir. Bu isə dini zəmində qarşıdurmalara gətirib çıxarır. İslamofobiya müsəlman ölkələrinə qarşı yönəlmiş məkrli və düşünülmüş siyasətin təzahürüdür. Belə bir şəraitdə İslam həmrəyliyi çox vacib əhəmiyyət kəsb edir. Tədbir müzakirələrlə davam edib.

# "Bakı Prosesi" mədəniyyətlərarası dialoq sahəsində təcrübəni bölüşmək üçün əvəzsiz platformadır



Mənim üçün yenidən Azərbaycana gəlmək böyük şərəfdir. Azərbaycan dinamik, inkişaf edən, gənc bir dövlətdir. Mən həm Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkilinə, həm də "Bakı Prosesi"nə görə Azərbaycan hökumətinə təşəkkür edirəm. Son illərdə Azərbaycan bütün dünyada mədəniyyətlərarası dialoqun inkişafına və təbliğ olunmasına xüsusi töhfə verib. Belə ki, Azərbaycan bir çox irimiqyaslı beynəlxalq mədəniyyət tədbirlərinin təşkilatçısı və tərəfdaşı kimi çıxış edir. Bu isə ölkənin həm mədəni, həm də iqtisadi baxımdan inkişafına təkan verir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı, Avropa Şurası baş katibinin müavini xanım Qabriela Battaini-Draqoni bildirib.

"Mədəniyyətlərarası dialoq sahəsində təcrübələri bölüşmək üçün bu Forum və "Bakı Prosesi" əvəzedilməz platformadır. Dünyada mövcud olan hazırkı vəziyyətdə mədəniyyətlərarası dialoq çox mühüm və vacib bir amildir. 2008-ci ildə Avropa Şurasının "Ağ kağızlar" adlı hesabatını "Bir yerdə, ləyaqət içində yaşamaq" başlığı altında dərc etdik. Demokratiya, bərabərlik və qanunun aliliyi prinsipi Avropa Şurası üçün vacibdir, biz bu yolla inkişaf edirik. 2008-ci ildə Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransına Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq 10 İslam ölkəsi dəvət edildi. Bununla da mədəniyyət nazirlərinin konfransı yeni bir formata transformasiya olundu. Konfrans çərçivəsində Avropa Şurasına və İslam Konfransı Təşkilatına üzv dövlətlər arasında mədəniyyətlərarası dialoqa dair birgə bəyannamə qəbul olundu. Avropa Şurasına üzv dövlətlər bu prinsipləri qəbul ediblər. Biz bu prinsiplər əsasında sülhə nail ola bilərik.

Bizim Şimal-Cənub Mərkəzimiz qlobal vətəndaşlıq konsepsiyası üzərində işləyir. Avropa İnsan Hüquqları Məhkəməsinin qətnamələrində, Avropa Şurası qurumlarının qərarlarında tolerantlıq təşviq olunur. Mədəniyyətlərarası dialoq heç vaxt bitməyən bir çağırışdır. Biz bu Forumun prinsiplərini fəaliyyətə çevirməliyik. Bu, bizdən birgəyaşayışa dair narahatlıqları aradan qaldırmağa və dövlət strukturlarını yenidən qurmağı tələb edir. Mədəniyyətlərarası dialoqda azlıqların hüquqlarının qorunması çox vacibdir. Tərəqqi siyasi iradə əsasında təmin oluna bilər. Çağdaş Avropada ifrat millətçiliyin və populizmin inkişafını görürük. Buna görə bir çox problemlər yaranır. "Bakı Prosesi" məhz bu məsələlərə həsr olunub. Qələbə qazanmaq üçün bu, çox vacibdir", - deyə Qabriela Battaini-Draqoni qeyd edib.

# Forum çərçivəsində "Qlobal vətəndaşlıq təhsili: Sülh mədəniyyətinin aşılanması" mövzusu ətrafında müzakirələr aparılıb




Mayın 2-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən sessiyada "Qlobal vətəndaşlıq təhsili: Sülh mədəniyyətinin aşılanması" mövzusu ətrafında geniş müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, jurnalist Çaker Xazalın moderatorluğu ilə keçirilən sessiyada Avropa Şurasının Şimal-Cənub Mərkəzinin Qlobal Təhsil Proqramının meneceri Migel Silva çıxış edərək fərqli mədəniyyətlərə malik insanlarla iş prosesində qazanılan təcrübə proqramından danışıb. Qeyd edib ki, bu gün dünyada müxtəlif pedaqoji kollektivlərdə müxtəlif mədəniyyətləri təmsil edən insanlar çalışır. M.Silva təmsil etdiyi qurumda tarazlı şəkildə təşkil olunan treninqlərdən söz açaraq söyləyib ki, bu treninqlərdə iştirakçılara həm təkbətək, həm də qrup halında öyrənmə prosesi aşılanır: "Bizim düşüncəmiz və prioritetimiz mədəniyyətimizlə bağlıdır ki, bu da bizi fərqləndirir. Biz bu treninqlərlə çox səmərələri nəticələr əldə edirik. Eyni zamanda, bizə qoşulmuş təşkilatlarla rezidensiya kursları da təşkil edirik. Kurslar, əslində spesifik çərçivədə təşkil olunur. Bu kurslar qlobal vətəndaşlar şəbəkəsinin universitetlərində aparılır. On gün davam edən kurslarda gənclər öyrənmə prosesində çox şey əldə edirlər. Bu, həm də gənclərin bir-biri ilə hər hansı təcrübəni bölüşmək baxımından əlverişlidir. Treninqlərlə yanaşı, kurslarımızda da müxtəlif mövzular tədris edilir. Qlobal vətəndaşlıq təhsili alan insanlara sülh mədəniyyətinin aşılanması vacib məsələlərdəndir. Bu hal onların sonrakı fəaliyyətlərində xüsusi önəm kəsb edir".

İsveçrənin Mədəniyyətlərarası Təhsil, Təlim və Tədqiqat Cəmiyyətinin (SIETAR) prezidenti xanım Ann-Klod Lambelet rəhbəri olduğu qurumun fəaliyyət istiqamətlərindən danışıb. SIETAR-ın dünyanın 30 ölkəsində nümayəndəliyinin olduğunu qeyd edən A.K.Lamblet qurumun öz sahəsində peşəkar olan insanlarla əməkdaşlıq etməyə üstünlük verdiyini söyləyib. O vurğulayıb ki, SIETAR bu əməkdaşlıq və əlaqələr sayəsində dünyada ən qabaqcıl texnologiya və yeniliklərdən zamanında xəbərdar ola bilir: "Biz konqreslərimiz və seminarlarımızda hər zaman təcrübə mübadiləsi edirik. Biz gənclərin fəaliyyətinə üstünlük veririk. Çalışırıq ki, yaşadığımız mühitə təsir göstərə bilək".

Sonra KAICIID-in Baş katibinin müavini Alvaro Albaset, UNESCO-nun Nyu-Dehlidə yerləşən Sülh və Dayanıqlı İnkişaf üzrə Mahatma Qandi Təhsil İnstitutunun təhsil vasitəsilə zorakı ekstremizmin qarşısının alınması üzrə mütəxəssisi Kuani Simon, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli, "Sri Lanka Unites" Gənclər Hərəkatının milli direktoru Liyanaaraççig Neluni Tillekeratne və Pakistan Gənclər Alyansının "Peace Rickshaws" layihəsinin təsisçisi Syed Ali Abbas Zaidinin mövzu ilə bağlı çıxışları dinlənilib. Panel sessiya işini müzakirələrlə davam etdirib.

# Kuani Şimon: Azərbaycan dünyanın mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilib



Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu xalqlar, icmalar və cəmiyyətlər arasında dialoq üçün optimal şəraitin və bu şəraitin həm daxili, həm də millətlərarası "müxtəliflik dividendlərini", yəni cəmiyyətlərin daha da müxtəlifləşməsindən irəli gələn fayda və üstünlükləri artırmaq yollarını araşdırmağa imkan yaradacaq.

Bu fikri AZƏRTAC-a müsahibəsində Forum çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının təşkil etdiyi "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması" aralıq sessiyasının panelçisi, UNESCO-min Sülh və Dayanıqlı İnkişaf üzrə Mahatma Qandi Təhsil İnstitutunun təhsil vasitəsilə zorakı ekstremizmin qarşısının alınması üzrə mütəxəssisi Kuani Şimon deyib.

O qeyd edib ki, Forumda 105-dən çox ölkə və 35-dən çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmilərinin iştirakı "Bakı Prosesi"nin coğrafiyasının və beynəlxalq əməkdaşlığın genişlənməsindən xəbər verir. Forumun Bakıda təşkili Azərbaycanın dünyanın mədəniyyət və mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilməsinə dəlalət edir. Dialoq, anlaşma, sülh, sabitlik, mehriban birgə yaşama, tolerantlıq kimi şüarların və təbliğat işlərinin yayılması olduqca vacibdir. Azərbaycana və Prezident İlham Əliyevə belə bir təşəbbüsü reallaşdırdığına görə təşəkkür edirəm.

# Arun Gupta: "Bakı bütün mədəniyyətləri birləşdirməyi bacarır"



***"Mən ilk dəfədir ki, Bakıya səfər edirəm. Daha əvvəl heç bir forumda iştirak etməmişəm, Azərbaycana məhz forumda iştirak etmək üçün gəlmişəm". Bu fikirləri SİA-ya açıqlamasında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Hindistandan olan iştirakçısı Arun Gupta deyib. O bildirib ki, forumda müxtəlif mədəniyyətə, dinə, dilə, irqə sahib olan insanlar görmək mümkündür: " Bütün bunlar o deməkdir ki, Bakı bütün mədəniyyətləri birləşdirməyi bacarır".***

A.Gupta söyləyib ki, Bakının 100-lərlə insana qucaq açması Azərbaycanın mədəniyyət ocağı olmasından xəbər verir. Forumdan gözləntilərinin çox yüksək olduğunu deyən hindistanlı iştirakçı Azərbaycanın inkişafı ilə bağlı fikirlərini bölüşüb. O bildirib ki, Azərbaycanda infrastruktur çox gözəl inkişaf edib: "Ölkəniz çox gözəl, müasir, insanlarınız vətənpərvərdir".

***Artıq bir neçə ildir ki, ekspertlər qlobal miqyasda təhdid və risklərin artdığını, vəziyyətin daha da qeyri-müəyyən xarakter aldığını vurğulayır, bunu sübut edən konkret faktlar da gətirirlər. İndi BMT-nin Tərksilah Komissiyası həyəcan təbili çalır. Bu komissiya nüvə silahının yayılmaması ilə bağlı gələn il keçirilməli olan beynəlxalq tədbirə hazırlıq kontekstində maraqlı və düşündürücü hesabat hazırlayıb.***

Sənədin hazırlanmasında müstəqil ekspertlər də iştirak ediblər. Alınan nəticələr narahatlıq doğurur. Mütəxəssislər xəbərdarlıq edirlər ki, dünya kifayət qədər təhlükəli vəziyyətlə üz-üzədir. Konkret olaraq, ABŞ, Rusiya və Çin arasında güzəştsiz silahlanma yarışı gedir. Onlar sürətlə yeni silahlar yaratmağa və öz üstünlüklərini sübut etməyə çalışırlar. Nəticədə, bəşəriyyət üçün olduqca təhlükəli bir vəziyyət - hətta kiçik təsadüfdən belə qlobal savaşın meydana çıxma ehtimalı yaranır. Belə bir durumda nə etmək olar? Biz bu suala geosiyasi cavab üzərində geniş dayanmağı lazım bildik.




# UNODA-nın xəbərdarlığı: nüvə müharibəsi təhlükəsi və regional münaqişələrdəki risklər

## Amansız rəqabət: üç böyük dövlətin yaratdığı təhdidlər

Birləşmiş Millətlər Təşkilatının Tərksilah Komissiyasının (UNODA) son hesabatı dünya siyasətinin çox düşündürücü bir problemini ortaya qoyur. BMT açıq xəbərdarlıq edir ki, silahlanma üzərində nəzarət sistemi çökür. Bunun məntiqi nəticəsi isə dünya üçün fəlakətli olacaq. İndiyə qədər bu dərəcədə konkretliklə həmin problem dilə gətirilməmişdi. Daha maraqlısı odur ki, UNODA məsələnin səbəblərini və kökünü lakonik olaraq ifadə edib.

Hesabatda vurğulanır ki, silahlanma üzərində nəzarət sisteminin çökməsi bütün dünya, ilk növbədə, ABŞ, Rusiya və Çin üçün fəlakətlə nəticələnəcək. Bu böyük dövlətlər ciddi maliyyə problemləri ilə üzləşə bilərlər. Bəs niyə məhz bu üç dövlət?

Çünki məhz bu dövlətlər silahlanma və tərksilah üzrə nəzarət sisteminin tələblərinə əməl etmir, bununla da qlobal geosiyasi proseslərə dağıdıcı təsir edirlər. UNODA hesabatda vurğulayır ki, BMT-nin baş katibi Antonio Quterreş hələ ötən il dünyanı yeni "soyuq müharibə" təhlükəsi gözlədiyi barədə xəbərdarlıq etmişdi. Ancaq adları çəkilən ölkələr bundan bir nəticə çıxarmırlar və onlar arasında məhdudiyyətsiz silahlanma və gərginlik daha da artır. Xüsusilə ABŞ-la Rusiya arasında daha ciddi münaqişəli vəziyyət yaranıb. Lakin Vaşinqtonla Pekin arasında silahlanma və ticarət sahəsində rəqabət də güclənir.

Bununla üçtərəfli gərginlik zonası yaranır ki, bu da bütün dünyanı əhatə edir. Bu gərginlik ocağı bəşəriyyəti məhv edə biləcək hərbi potensiala sahibdir. Bu səbəbdən yaranmış vəziyyət təkcə həmin üç dövlətin deyil, bütün ölkələrin təhlükəsizliyini təhdid edir.

Ekspertlər bu kontekstdə daha qorxunc bir ssenaridən bəhs edirlər. Onlar hesab edirlər ki, hər hansı böhran və ya münaqişənin fonunda nüvə müharibəsi təhlükəsini istisna etmək olmaz. Hətta "hər hansı mexaniki səhvin, səhlənkarlığın və ya elektron cihazlardakı nasazlığın belə bütün bəşəriyyətin məhv olmasına səbəb olacağı" barədə xəbərdarlıq edirlər.

Onu da demək lazımdır ki, bu hesabatı yalnız Tərksilah Komissiyasının üzvləri hazırlamayıblar. Prosesdə kənardan dəvət olunmuş ekspertlər də iştirak ediblər. Nəzərdə tutulub ki, sənəd nüvə silahlarının yayılmaması haqqında müqavilə iştirakçılarının 2020-ci ildə keçiriləcək konfransı ərəfəsində aprelin 29-da başlayacaq hazırlıq sessiyasının müzakirəsinə təqdim olunsun. Bu, onu göstərir ki, həm BMT, həm də bütövlükdə ekspert dairələri problemə kifayət qədər ciddi yanaşırlar.

Əlbəttə, UNODA-nın narahatlığı tam əsaslıdır. Son illər ABŞ-Rusiya-Çin "üçbucağı"nda olduqca təhlükəli proseslər gedir. Bu ölkələr yeni-yeni və daha dağıdıcı silahlar yaradırlar. Bu, onlar arasında "kim daha güclüdür" yarışının səhnələrini xatırladır. Məsələn, Yaponiyada qəzaya uğramış "F-35A" qırıcı təyyarəsinin qalıqlarının Rusiya və Çinin əlinə keçməsini amerikalılar böyük fəlakət kimi qiymətləndirirlər. Onlar hesab edirlər ki, bu qırıcı özündə yeni hərbi sirlər gizlədir və onun rəqiblər tərəfindən öyrənilməsi müdafiəyə ciddi zərər vura bilər.

## Çıxış yolu: beynəlxalq hüquq və BMT-də islahatlar

Bir anlığa təsəvvür edək ki, "F-35A"-nın hərbi sirlərini Moskva və ya Pekin öyrəndi. Sonra nə olacaq? ABŞ dərhal əks-addım atacaq və yeni silahlanma yarışı başlayacaq. Və ya amerikalılar Rusiyanın "Sarmat" ballistik raket sisteminin sirlərinə yiyələnsələr, Kreml hansı reaksiyanı verəcək? Eynilə yeni yarış başlayacaq.

Əslində, sözügedən üçlük ölkələri arasında intensiv silahlanma yarışının getdiyini təsdiqləyən informasiyalara tez-tez rast gəlirik. Üstəlik, onlar hərb meydanında da silahlarını sınaqdan keçirirlər. Məsələn, Suriyada ABŞ və ya İsrail raketlərinin Rusiya istehsalı olan hava hücumundan müdafiə sistemləri tərəfindən zərərsizləşdirilməsi imkanları məhz döyüş meydanında aydınlaşdırıldı. Konkret zərbələr isə Suriyaya endirildi. Bu o deməkdir ki, böyük dövlətlər üçün Suriya həm də öz silahlarının gücünü göstərmək üçün bir poliqondur. Burada insanların həlak olması və ya yurd-yuvalarından didərgin düşməsi onları elə də maraqlandırmır. Çox danışılsa, "terrorla mübarizə aparırıq", deyirlər.

İndi təsəvvür edək ki, bir başqa yerdə UNODA-nın göstərdiyi səbəb üzündən ixtilaf meydana çıxdı. ABŞ, Rusiya və Çin silah işlətməkdən çəkinəcəklərmi? Kim təminat verə bilər? Çox çətin məsələdir. Bu səbəbdən silahlanmaya nəzarət etməyə BMT-nin gücünün çatmaması olduqca təhlükəlidir. Bu vəziyyəti də yaradan məhz həmin dövlətlərdir. Onlar kimsəni dinləmədən dünya ağalığı iddialarını davam etdirirlər.

Buradan məntiqi geosiyasi nəticələr alınır. Hər şeydən öncə aydın olur ki, hazırda silahlanma sahəsində vəziyyət çox həssas bir nöqtəyə gəlib çıxıb. Adi və kiçik görünən təsirlər belə qlobal dünya nizamını tarazlıq vəziyyətindən çıxara bilər. Eyni zamanda, beynəlxalq təşkilatların yaranmış vəziyyətə müdaxilə imkanları çox məhdudlaşıb. Məsələn, BMT ancaq faktı fiksasiya edə və ya riskin olduğunu göstərə bilər. Bu vəziyyəti dəyişmək üçün isə onun təsir mexanizmləri yoxdur. Təhlükəsizlik Şurasının üzvləri kimsəni dinləmirlər. Belə bir vəziyyətdə nə etmək olar?

İlk növbədə, beynəlxalq təşkilatlarda islahatların aparılması zərurəti bir daha gündəmə gəlir. Özəlliklə, BMT-də bu proses təcili aparılmalıdır. Beynəlxalq hüquq normalarının pozulması hallarının qarşısı ciddi surətdə alınmalıdır. Dövlətlər arasında münasibətlər güc faktoruna deyil, məhz beynəlxalq hüquqa əsaslanmalıdır. Bu kontekstdə, görünür, BMT-nin Təhlükəsizlik Şurasının üzvlərinin sayının artırılması ilə bağlı irəli sürülən təkliflərə diqqət artırılmalıdır. Çünki qərar vermək haqqı nə qədər çox sayda dövlətdə olsa, obyektiv qərarlar da bir o qədər çox qəbul edilə bilər.

Bu sırada regional münaqişələrin həllinə də beynəlxalq hüquq normaları çərçivəsində yanaşılması məsələsi özlüyündə prinsipial əhəmiyyət kəsb edir. Bu məqam ABŞ-ın Ərəb-İsrail münaqişəsi ilə bağlı son addımları ilə daha da aktuallaşıb. Məsələn, ABŞ-ın dövlət katibi Mayk Pompeo məsələlərə yanaşmada ənənəvi ikili standartlara haqq qazandırmaq üçün münaqişələrə "yeni" meyarlar tətbiq etməyə çalışır. Guya Colan yüksəkliklərinin tutulması ilə Krımın ilhaqı arasında ciddi fərqlər varmış. "İsrail Colan yüksəkliklərini Suriyanın hücumundan müdafiə olunarkən işğal edib, Rusiya isə Krımı ilhaq edib, hərçənd, Ukrayna tərəfindən heç bir təhdid yox idi. ...Bu iki vəziyyətdən daha fərqli vəziyyət ola bilməz". Başqa sözlə, İsrail "təcavüzkar deyil, özünü qoruyur", Rusiya isə "təcavüzkardır, başqa torpaqlara hücum edir".

Bu fikir o dərəcədə bəsit və gülüncdür ki, adi məntiqə belə sığmır. Məsələn, özünümüdafiə bəhanəsi ilə istənilən təcavüzə haqq qazandırmaq olar! Yəni burada real vəziyyət deyil, hər şey kimin nə istəməsindən asılı olur. Təsadüfi deyil ki, ermənilər artıq Colan məsələsini misal kimi göstərməyə başlayıblar. Onun əsasını belə bir fikir təşkil edir: "İsrailə işğal etdiyi ərazini özününküləşdirmək olar, Ermənistana yox?".

Deməli, bu proses də dünyada geosiyasi mənzərəyə ciddi qarışıqlıq gətirə bilər. Onun qarşısı alınmasa, yeni silahlanma yarışlarının fonunda daha riskli bir situasiya yaranacaq. Bu məqam həm də onu göstərir ki, müasir dünyada qlobal vəziyyətlə regional və lokal hadisələr arasında sıx bağlılıq meydana gəlib. Təhlükə və risklər asanlıqla bu miqyasların birindən digərinə sürətlə sıçraya bilər. Onun ən yaxşı cilovu isə beynəlxalq hüquq normalarıdır!

***Newtimes.az***

# Dövlət başçısının sistemli və davamlı xarakter daşıyan növbəti humanist addımı

## *İlham Əliyev: "Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, ən ağır məqamlarda dövlət onların yanındadır"*

***Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyası 2003-cü ildən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilərək böyük nailiyyətlərə imza atılıb. Uğurla həyata keçirilən iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişaf proqramları Azərbaycanda nəhəng infrastruktur layihələrinin reallaşmasına, iqtisadiyyatın bütün sahələrinə öz təsirini göstərib.***

Sürətli sosial-iqtisadi inkişaf dövrünü yaşayan Azərbaycanın əldə etdiyi uğurlar, tərəqqi hər bir vətəndaşın həyatında özünü büruzə verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində, əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Ölkəmizdə 11 aprel 2018-ci il tarixdə keçirilən prezident seçkilərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin növbəti dəfə xalqın böyük əksəriyyətinin səsini qazanaraq parlaq qələbə qazanmasından sonra ötən bir bir il ərzində ölkəmizdə bütün sahələr daha da inkişaf edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısının qeyd etdiyi kimi, "Biz ötən il keçirilmiş prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə qədəm qoyduq. Prezident seçkiləri ərəfəsində islahatların anonsu verildi və islahatların məqsədyönlü şəkildə həyata keçirilməsi üçün çox ciddi addımlar atılmışdır, hazırlıq işləri aparılmışdır. Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib... Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edildi, insanların rifah halı yaxşılaşdı və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır".

Belə ki, şəhid ailələrinə birdəfəlik ödəmə verilib, minimum əməkhaqqı, minimum pensiya, tələbələrin təqaüdləri əhəmiyyətli dərəcədə artırılıb, qaçqın və məcburi köçkünlər də daxil olmaqla, bütün növ müavinətlər 100 faiz həcmində artırılıb.

### MAVİ QAZIN İLLİK SATIŞ TARİFİ 1700 KUB METRDƏN 2200 KUB METRƏDƏK YÜKSƏLDİLİB

Prezidentin sistemli və davamlı xarakter daşıyan sosial siyasətinə uyğun olaraq, növbəti humanist addım da atılıb. Görülən bu və ya digər işlərin davamı olaraq, bu günlərdə dövlət başçısının tapşırığına əsasən, əhalinin sosial rifahının daha da gücləndirilməsi məqsədilə Azərbaycanda təbii qazın istifadə limiti də artırılıb. Belə ki, əhalinin aztəminatlı hissəsinin maddi vəziyyətinin yaxşılaşdırılması baxımından mavi qazın illik satış tarifi 1700 kub metrdən 2200 kub metrədək yüksəldilib. İstehlak həcminin dəyişməsi ilə əlaqədar olaraq yaranmış fərq dövlətin maliyyə vəsaiti hesabına qarşılanacaq.



Göründüyü kimi, dövlət başçısı hər zaman öz vətəndaşına qayğı ilə yanaşır, onun prolemlərinin həlli istiqamətində ciddi addımlar atılır. "Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, ən ağır məqamlarda dövlət onların yanındadır", - deyən dövlət başçısı bildirib ki, dövlət orqanları, mərkəzi və yerli icra orqanlarının nümayəndələri daim vətəndaşlara qayğı, diqqət göstərməlidirlər, daim vətəndaşların yanında olmalıdırlar: "İcra başçıları qəsəbələrdə, kəndlərdə olmalıdırlar, vətəndaşların problemlərini eşitməlidirlər, onlara biganə qalmamalıdırlar, onlara şərait yaratmalıdırlar, onlara dəstək olmalıdırlar, kömək göstərməlidirlər. Bu sahədə çox ciddi islahatlar aparılır və aparılacaq".

### "BU GÜN QAZLAŞDIRMANIN SƏVİYYƏSİNƏ GÖRƏ AZƏRBAYCAN DÜNYADA LİDER ÖLKƏLƏRDƏNDİR"

Bu gün ölkəmizdə istər iqtisadi, istərsə də sosial sektorlara aid yüksək səviyyəli infrastruktur quruculuğu dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. Son illərdə Azərbaycanın güclü infrastruktur təminatına malik ölkəyə çevrilməsi qazlaşdırma sahəsində də qabarıq şəkildə nəzərə çarpır. İndiyədək respublikanın bütün regionlarında genişmiqyaslı qazlaşdırma layihələri həyata keçirilib ki, bunun da sayəsində ölkənin bütün şəhərlərinin mavi yanacaq təchizatına nail olunub. Prezidentin qətiyyətli siyasi iradəsi ilə Azərbaycanın zəngin qaz potensialından ölkə əhalisi bəhrələnir. "Bu gün qazlaşdırmanın səviyyəsinə görə Azərbaycan dünyada lider ölkələrdəndir, qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb", - deyən Prezident İlham Əliyev ən ucqar dağ kəndlərinə qaz xətləri çəkildiyini diqqətə çatdırıb: "İndi bizim təqribən 3-4 faiz yaşayış məntəqələrimiz var ki, orada qaz yoxdur. Biz o işləri də görəcəyik".

Təbii ki, bu gün ölkəmizdə iqtisadi sabitləşmənin nəticəsi olaraq, sosial sahədə ciddi dəyişikliklər baş verir. Təkcə bu ilin ötən dövründə Prezident İlham Əliyevin uğurlu sosial islahatlar paketi vətəndaşların rifahına ciddi dəstək olan inqilabi addımların atılmasına imkan verib. İnsanların sosial müdafiəsinin gücləndirilməsinə hesablanmış islahatlar sosial sahədə inqilabi dəyişikliklərə gətirib çıxarır.

***Nəzakət ƏLƏDDİNQIZI***

---

## "İRATES": "Paşinyan "sorosçu" qanadı qurban verib"




Ermənistanın "İrates" qəzeti yazır ki, hakimiyyət qanadlarında ciddi mübarizəyə başlanılıb. SİA adıçəkilən erməni qəzetinə istinadən xəbər verdiyinə görə, hələ ki, hakimiyyətin "nikol-vatentsyan" qanadı ona doğru can atırdılar ki, parlament və parlamentdənkənar müxalifət qüvvələri hakimiyyətin "sorosçu" qanada qarşı mübarizə aparsınlar. Lakin müxalifət tərəfi ağıllı tərpənərək, geriyə çəkildi və hakimiyyətdaxili didişməni elə hakimiyyətin özünə buraxdı.

"Buna baxmayaraq, David Sanasaryanın de-fakto istefasından sonra, növbəti dəfə şayiələr yaranmağa başladı ki, yaxın vaxtlarda hakimiyyətin "sorosçu" qanadının bariz nümayəndəsi, Təhlükəsizlik şurasının sədri Armen Qriqoryan öz vəzifəsini tərk edəcək. "Nikol Paşinyan bənzər qurbanlar verməklə Rusiyanın və Putinin qəlbini ələ almağa cəhd göstərir", yazan "İrates" əlavə edib ki, artıq bugünlərdə "sorosçu" qanadın təmsilçiləri iqtidardan qopma ətrafında məsələləri müzakirə edirlər. "Onlar bu vasitə ilə yeni siyasi birlik yaratmaq fikrindədirlər",- deyə hakimiyyətə yaxın mənbə erməni nəşrinə deyib.




## Apreldə Gürcüstan Azərbaycandan 177 milyon kubmetr təbii qaz alıb

Cari ilin aprelində Gürcüstan Azərbaycandan 177 milyon kubmetr təbii qaz idxal edib. AZƏRTAC xəbər verir ki, Gürcüstanın təbii qaza olan tələbatının 97 faizi Azərbaycan tərəfindən ödənib. Hesabat ayında Gürcüstan Rusiyadan 6 milyon kubmetr təbii qaz alıb ki, bu da ümumi tələbatın təxminən 3 faizini təşkil edib.

## Əlilliyi olan işçilərə əmək məzuniyyəti istəklərinə uyğun vaxtda verilə bilər




Əlilliyi olan şəxslərə işlədikləri müəssisədə əmək məzuniyyəti istəklərinə uyğun olaraq onlar üçün əlverişli vaxtda verilə bilər. Əmək Məcəlləsinə əsasən, əmək məzuniyyətinin verilməsində növbəlilik prinsipi həmin kateqoriyadan olan şəxslərə şamil edilmir. Bu hüquq 14 yaşınadək iki və daha çox uşağı olan və ya sağlamlıq imkanları məhdud uşağı olan qadınlara, 16 yaşınadək uşaqları təkbaşına böyüdən valideynə və ya qəyyuma, müharibə veteranlarına, yaşı 18-dən aşağı olan işçilərə və Məcəllədə nəzərdə tutulan digər kateqoriyalardan olanlara da şamil olunur.

Bu barədə AZƏRTAC-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən məlumat verilib. Eyni zamanda, işçinin birinci iş ili üçün əmək məzuniyyətindən istifadə etmək hüququ əmək müqaviləsinin bağlandığı andan etibarən altı ay işlədikdən sonra əmələ gəlir. Bu müddətdən sonra ona birinci iş ili bitənədək əmək məzuniyyəti ərizəsi əsasında işəgötürənlə razılaşdırıldığı vaxtda verilə bilər. Lakin bir sıra kateqoriyalardan olan işçilərlə yanaşı, əlilliyi olan işçilərin əmək müqaviləsinin bağlandığı vaxt nəzərə alınmadan işin birinci ili üçün əmək məzuniyyətindən istifadə etmək hüququ var. Əlilliyin qrupundan, səbəbindən və müddətindən asılı olmayaraq işləyən əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud olan 18 yaşınadək işçilərə minimum 42 gün əmək məzuniyyəti verilir.



## Bakı Ali Neft Məktəbi Cenevrə Biznes Məktəbi ilə əməkdaşlığa başlayır

Bakı Ali Neft Məktəbində (BANM) Cenevrə Biznes Məktəbi (GBS) ilə Neft və Qaz Menecmenti üzrə birgə MBA proqramı barədə Əməkdaşlıq haqqında Razılaşma imzalanıb.

Ali Neft Məktəbindən AZƏRTAC-a bildirilib ki, razılaşmanın məqsədi Beynəlxalq Biznes Məktəbləri (IBS) vasitəsilə GBS və BANM arasında tədris və akademik sahələrdə tərəfdaşlıqdır. İmzalanma mərasimində Ali Neft Məktəbinin professor-müəllim heyəti və əməkdaşları ilə yanaşı, SOCAR-ın əmək şəraiti normalarının işlənməsi idarəsinin rəis müavini Kamran Dadaşov və idarənin iqtisadi göstəricilər və maliyyə modelləşdirməsi şöbəsinin rəisi Ziya Mürsəlov da iştirak ediblər. Razılaşmaya görə, Bakı Ali Neft Məktəbi növbəti tədris ilindən etibarən GBS-in tədris proqramı əsasında Neft və Qaz Menecmenti üzrə MBA proqramına qəbul həyata keçirəcək. Proqram çərçivəsində tələbələrə neft-qazın treyninqi, rəqəmsal idarəetmə (digital management), blokçeyn menecment və digər müasir fənlər tədris olunacaq. Tədrisin yekununda tələbələr həm BANM, həm də GBS-in diplomlarını alacaq.

# 3 may - Beynəlxalq Media Azadlığı Günüdür!

*Azərbaycan mediası daim dövlətin dəstəyini və qayğısını öz üzərində hiss edib*

***Media azadlığı hər bir jurnalist üçün əhəmiyyət daşıyan faktordur və söz yox ki, istər daxili, istərsə də xarici auditoriyanı informasiya ilə təmin etmək jurnalistlərə heç də asan başa gəlmir. Çünki qlobal hadisələrin cərəyan etdiyi dünyada müxtəlif sosial, iqtisadi və s. hadisələr baş verir, təzadlar yaşanır. Bu baxımdan, hər il may ayının 3-də Beynəlxalq Media Azadlığı Günü kimi qeyd olunur. Hər sivil dövlətdə azad, müstəqil medianın təşəkkül tapması çox vacib bir amildir.***

Həmçinin, azad media azad sözün, insan hüquqları və azadlıqlarının həm də qoruyucusu rolunda çıxış edir.

### Hətta ABŞ-da və digər Qərb ölkələrində belə, zaman-zaman jurnalistlərin təqib olunmaları, öldürülmələri barədə məlumatlara rast gəlirik

Söz yox ki, bu eyni zamanda şərəfli missiyadır və cəmiyyət, öz növbəsində, jurnalistikaya adekvat diqqət və qayğı ilə cavab verir. Təəssüf ki, dünyanın heç bir yerində mütləq, ideal media azadlığı yoxdur və bu, mümkün də deyil. Hətta ABŞ-da və digər Qərb ölkələrində belə, zaman-zaman jurnalistlərin təqib olunmaları, öldürülmələri barədə məlumatlara rast gəlirik. Habelə, dünyanın müxtəlif qaynar nöqtələrində işlərini, vəzifələrini icra edən neçə-neçə jurnalist həmkarlarımız həyatlarını itiriblər. O cümlədən, böyük ictimai-siyasi proseslərin cərəyan etdiyi Avropa ölkələrində belə, insanlar etirazçılarla yanaşı, onların tələblərini işıqlandıran media nümayəndələrinin polis və s. güclər tərəfindən sıxışdırıldığının şahidlərinə çevriliblər. Fransada, Belçikada, ABŞ-da və s. ölkələrdə bu halları sübuta yetirən çoxsaylı faktlar, dəlillər var. Ona görə də Beynəlxalq Media Azadlığı Günü belə hallar barədə də danışılır, müzakirələr aparılır.

### Bu gün biz haqlı olaraq azad mediaya sahib olmağımızla fəxr edirik!

Əlbəttə ki, Azərbaycan xalqı sivil, demokratik düşüncəyə sahib olan xalqlardandır ki, söz, media azadlığını və tolerantlığı özünün mənəvi, əxlaqi və ictimai dəyərlərinə, həyat və düşüncə tərzinə çevirə bilib. Bu gün biz haqlı olaraq azad mediaya sahib olmağımızla fəxr edirik. Ölkəmizdə söz, düşüncə azadlığı bir mütərəqqi ideya olaraq, davamlı inkişaf yolunu tutub. Hətta media azadlığı barədə Azərbaycanın tarixi şəxsiyyətləri də öz kəlamlarını həkk ediblər. Misal üçün, dahi mütəfəkkir Mirzə Fətəli Axundov söz və mətbuat azadlığının milli tərəqqi üçün vacib olduğunu söyləyib. Xalqımızın fikir və qələm dühaları - Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə, Üzeyir Hacıbəyli və başqaları, ilk növbədə, məhz, mətbu nəşrlər vasitəsilə milli intibahımız yolunda böyük xidmətlər göstəriblər.




Daha sonra - sovetlər dönəmində mətbuata qoyulan sərt senzura və qadağalar tətbiq olundu. Lakin Azərbaycan ötən əsrin sonlarında ikinci dəfə öz istiqlalına qovuşanda, təbii ki, söz, fikir və media azadlığı üçün real üfüqlər açıldı. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilmiş ölkə Konstitusiyasının 47-ci maddəsində hər kəsin fikir və söz azadlığı, 50-ci maddəsində məlumat azadlığı təsbit olundu. Hər kəs istədiyi fikri ifadə etmək azadlığı ilə bərabər, məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq hüququ qazandı. Təqdirəlayiq haldır ki, Azərbaycan dövləti beynəlxalq birliyin üzvü olaraq, söz və düşüncə azadlıqlarını nəzərdə tutan bütün mühüm sənədləri imzalayıb və onların icra olunmasını təmin edir. Belə ki, ölkəmiz Ümumdünya İnsan Hüquqları üzrə Bəyannaməni və "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını və başqa vacib hüquqi-normativ sənədləri təsdiq edib. Azərbaycanda 1996-cı ildə "Mətbuat azadlığı haqqında", 2003- cü ildə "İnformasiya azadlığı haqqında" Qanunlar qəbul edilib. Bu tarixi sənədlər dövlət orqanlarını, o cümlədən özəl, fiziki və hüquqi şəxsləri "informasiya sahibi" hesab edir və onların üzərinə konkret vəzifələr qoyur. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son illər ölkəmizdə söz azadlığının daha da güclənməsi, medianın azad, sərbəst fəaliyyət göstərməsi üçün davamlı işlər görülür.

### Söz, fikir və düşüncə azadlığı ölkənin inkişafı, əhalinin rifahı ilə harmonik inkişaf etməlidir

İndi dünyada çox az ölkə tapılar ki, azad media, onun maddi bazasının möhkəmləndirilməsi, jurnalistlərin öz peşə vəzifələrini sərbəst həyata keçirmələri, maddi-məişət şəraitlərinin yaxşılaşdırılması üçün Azərbaycanda olduğu qədər şərait yaradılsın. Burada bir məqamı da vurğulamaq yerinə düşərdi. Belə ki, söz, fikir və düşüncə azadlığı ölkənin inkişafı, əhalinin rifahı ilə harmonik inkişaf etməlidir. Əks halda, cəmiyyətdə radikallaşma baş verə bilər. Bir sıra postsovet ölkələrindən fərqli olaraq Azərbaycanda demokratik proseslər iqtisadi islahatlarla paralel aparılıb. Ölkə vətəndaşlarının siyasi hüquq və vəzifələri onların cəmiyyətin iqtisadi və siyasi idarəedilməsinə cəlb olunmaları ilə bərabər həyata keçirilib. Azərbaycan cəmiyyəti yüksək intellektə, geniş erudisiyaya malik sosiumdur. Bu baxımdan, Azərbaycan öz müstəqilliyini yenidən bərpa edərək azad, sivil, demokratik dövlət quruculuğuna başlayıb. Sirr deyil ki, xalqımız öz azadlığına, bundan sonrakı mərhələdə dünya birliyində öz layiqli yerini tutana qədər ağır, çətin sınaqlardan keçib. Xalqımızın isə bəxti onda gətirib ki, həmin dövrdə ölkəmizə Ulu Öndər Heydər Əliyev kimi dahi siyasətçi başçılıq edib. Millətini sonsuz məhəbbətlə sevən Ulu Öndərin zəngin siyasi təcrübəsi, qeyri-adi qətiyyəti sayəsində ölkəmizdə dövlətçiliyimizin etibarlı bünövrəsi qoyulub. Ümummilli Lider mətbuatın inkişafına bir an azalmayan qayğı və diqqət ilə yanaşırdı. Azərbaycanda dövlət senzurasının ləğv olunması, qəzet kağızının əlavə dəyər vergisindən azad edilməsi, qəzet redaksiyalarının Azərbaycan nəşriyyatına yığılıb qalmış kifayət qədər böyük borclarının silinməsi və sair bu kimi başqa vacib addımlar ölkəmizdə azad mətbuatın formalaşmasına münbit şərait yaradıb. Ona görə də, bizlər tam əminliklə deyirik ki, Ulu Öndər Heydər Əliyevin milli dövlət quruculuğunda azad mətbuat ilə bağlı siyasəti son 16 ildə Prezident İlham Əliyevin liderliyi ilə yeni dövrün reallıqlarına uyğun yaradıcı şəkildə davam etdirilib. Bu gün bütün dünya Prezident İlham Əliyevi xalqının, dövlətinin maraqlarını hər şeydən üstün tutan, ölkəsinin elmi və kadr potensialını uğurla istiqamətləndirə bilən, Azərbaycanın üzləşdiyi problem və çağırışları həll etməyə qadir olan müdrik və qətiyyətli dövlət başçısı kimi tanıyır.

### Dünyanın jurnalist cameəsi bu tarixi qürur və fərəhlə qeyd edir

O da təsadüfi deyil ki, bütün uğurlu məqsədə çatmaq üçün ölkəmizdə ardıcıl işlər görülür. 2003-cü il martın 15-də Azərbaycan Mətbuat Şurası ölkə jurnalistlərinin I qurultayında 180-dək aparıcı kütləvi informasiya vasitəsinin təsisçiliyi ilə yaradılıb və o vaxtdan uğurla fəaliyyət göstərir. Şuranın məqsədi jurnalistlərin öz peşə fəaliyyətlərində qanunvericiliyin tələblərinə, peşə prinsiplərinə əməl etməsinə ictimai nəzarət etmək, dövlət orqanları və ictimaiyyətlə mətbuat arasında əlaqə və etimadı möhkəmləndirmək, söz, fikir və məlumat azadlığına daha geniş imkanlar yaratmaqdır. Yeri gəlmişkən, bu illər ərzində şura media vasitələrinin fəaliyyət sahələrində baş verən münaqişələrin məhkəməyə qədər həlli variantlarının araşdırılması, ölkədə reket jurnalistikasının qarşısının alınması sahəsində faydalı işlər görüb. 2008- ci ildən Azərbaycan Prezidentinin Sərəncamı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb. Fondun əsas vəzifəsi fikir, söz və məlumat azadlığını, plüralizmi inkişaf etdirmək, kütləvi informasiya vasitələri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi məqsədi ilə qanunvericiliyi təkmilləşdirmək, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasını möhkəmləndirməkdir. Bu dəstəyin nəticəsi olaraq Azərbaycanın aparıcı qəzet və jurnalları, radio və televiziya kanalları cəmiyyəti maraqlandıran məsələlərə daha çox diqqət yetirir. Fond ayrı- ayrı istiqamətlər üzrə jurnalistlər arasında yazı müsabiqələri təşkil edir ki, bu, mətbuat işçilərini öz üzərində daha çox işləməyə, peşəkarlıqlarını artırmağa sövq edir. Azərbaycan mediası qarşısında duran əsas vəzifələrdən biri də Qarabağ həqiqətlərini bütün dünyaya çatdırmaq, Ermənistan dövlətinin təcavüzkar siyasətini ifşa etmək və baş verənləri bilavasitə yerli, həmçinin beynəlxalq media vasitələri ilə dünyaya çatdırmaqdır.

Beləliklə, Beynəlxalq Media Azadlığı Günü kimi dünya jurnalistləri tərəfindən qeyd edilən 3 may tarixi bir daha mətbuatın azad şəkildə fəaliyyət göstərməsinə önəmli stimul verir. Dünyanın jurnalist cameəsi bu tarixi qürur və fərəhlə qeyd edir.

**Rövşən RƏSULOV**






# Ağcabədidə millət vəkili Tahir Rzayevlə görüş keçirilib

***YAP Ağcabədi rayon təşkilatının və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Ağcabədi rayon Pedaqoji Kollecində millət vəkili Tahir Rzayevlə görüş keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə kollecin foyesində Ulu Öndər Heydər Əliyevin büstünün önünə tər çiçəklər düzərək, Onun əziz xatirəsini ehtiramla yad ediblər. Sonra tədbir kollecin iclas zalında davam etdirilib.

Tədbiri giriş sözü ilə Ağcabədi Pedaqoji kollecinin direktoru Mirələm İbrahimli açaraq, tədbir iştirakçlarını salamlayıb.

Tədbirdə çıxış edən millət vəkili Tahir Rzayev ötən əsrin 90-cı illərində ölkədə olan vəziyyət - xaos və anarxiya, o zamankı rəhbərliyin səriştəsizliyi, ölkənin uçuruma, vətəndaş müharibəsinin həddinə çatdırılması və Dağlıq Qarabağ münaqişəsinin yaranması barədə gənclərə geniş məlumat verib.

Millət vəkili Tahir Rzayev 15 iyun 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə respublikamızda stabilliyin yaranması və bu uzaqgörən, düşünülmüş siyasi kursun möhtərəm Prezidentimiz Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıb.

Natiq çıxışında, həmçinin bəzi antimilli qüvvələrin son vaxtlar sosial şəbəkələr vasitəsilə xalqa müəyyən yalançı vədlər verən, onları çaşdırmağa və ölkədə yenidən xaos yaratmağa cəhd göstərdiklərini nəzərə çatdıraraq, gənclərə hər zaman ayıq-sayıq olmalarını tövsiyə edib.

Sonda millət vəkili Tahir Rzayev tələbələr tərəfindən ona ünvanlanan sualları cavablandırıb.

Tədbirdə Ağcabədi RİHB-nin müavini Naibə Mustafayeva çıxış edərək, gənclərə milli-mənəvi dəyərlərimizi və tarixi keçmişimizi dərindən öyrənmələri və vətənpərvər olmağı tövsiyə edib. Azərbaycan QMƏVŞAİB-in Ağcabədi rayon şöbəsinin sədri, II qrup Qarabağ müharibəsi əlili İsmayıl Məhərrəmov çıxışında müharibə şəraitində yaşadığımız bir vaxtda hər bir Azərbaycan gəncinin mübariz və ayıq-sayıq olmağının vacibliyini gənclərin diqqətinə çatdırıb.

**ZÜMRÜD BAYRAMOVA**

# Saxta “lider”lərin, saxta vəsiqə ticarəti

*Və yaxud hər cinayətin altından AXCP və Müsavat çıxır*

***Bu, nə dünən, nə də bu gün deyil, illərdir ki, Müsavat-AXCP saxta vəsiqələr verir. Bu gün Müsavat partiyasında saxta vəsiqə qalmaqalının böyüməsilə yeni faktların üzə çıxması olmalı idi. Ən gülünc hal isə, AXCP deyir sən saxta vəsiqə alveri edirsən, Müsavat da and-aman edir ki, ay kişilər nə deyirsiniz, günahkar AXCP-dir. Necə deyərlər, şap elə bilir günahkar şupdur, şup da şapı qınayır. Ancaq partiya funksioneri Səxavət Soltanlının paylaşdığı statusundan sonra bu məsələ daha da qızışıb: “Bəli Müsavat Partiyasının, rəhbərlərinin adından saxta sənəd düzəldənlər var, biz onların kimlər tərəfindən verilməsinin müəyyənləşməsində ən çox maraqlıyıq. Hüquq-mühafizə orqanlarına müraciət edirik ki, tapın bu cinayətkarları”.***

Elə bu yerdə deyiblər, dağa-daşa düşməyə nə ehtiyac. İddialarda İsa Qəmbərin Müsavat Partiyası başqanı olduğu dönəmlərdə daha çox yalançı arayış verilməsi məsələsini siz müsavatçılar bilmirdilər? Müsavat Məclisinin keçmiş üzvü Adil Qeybulla bildirib ki, partiyada olanların hamısı yaxşı bilirdi ki, Müsavatın saxta vəsiqələri elə -belə verilmirdi: “Hər vəsiqənin öz qiyməti var idi. Elə bu səbəbdən də bu gün məsələ kəskinliyi ilə ortaya çıxıbsa, bununla bağlı ciddi araşdırma aparılmalıdır. Məsələni ört-basdır etməkdənsə, bunu aydınlaşdırmaq və tədbirlər görmək lazımdır”.

Müsavat Partiyası başqanının keçmiş müavini Qabil Hüseynli də saxta partiya vəsiqələrilə bağlı məsələnin aydınlaşdırılmasının vacib olduğunu bildirib: “Bu çox üzücü hadisədir. İnsanlar xaricə getmək üçün öz ölkələrində müxtəlif saxta yollara əl atırlar, müxtəlif partiyalardan istifadə edirlər. Bu məsələ aydınlaşdırılmalıdır”.





### Saxta vəsiqə, saxta “müsavatçılar”...

İsveçdə yaşayan mühacir Sərdar Ağayev bildirib ki, bu kimi saxta sənədlər hələ 2006-cı ildən ortaya çıxmışdı: “O sənədləri hazırlayan və satan da məlum idi. Mən də bir neçə nəfəri tanıyırdım ki, belə sənəd almışdı. O vaxt o saxta sənədi hazırlayan şəxsin Müsavata heç bir aidiyyatı yox idi. Adam oturmuşdu ADP-nin qərargahında, saxta partiya sənədi, polisdən axtarış barədə saxta arayış, saxta məhkəmə hökmü, bir sözlə, nə istəsələr hazırlayıb satırdı. Elə həmin zamanlar da Müsavat partiyasına aid bir saxta bilet ortaya çıxmışdı”.

Belçikada yaşayan jurnalist mühacir Zülfiyyə Zahid: “Təkcə Belçikada xeyli sayda saxta müsavatçı, cəbhəçi və “nidaçı”lar var. Bunları pul verib, saxta sənəd aldıqları üçün qınamaq lazım deyil. O sənədləri onlara pulla satan adamlar qınanmalıdır. 300 manata görə minlərlə insanın haqqına girirlər”.

2015-ci ildə Belçikada siyasi sığınacaq almağa çalışan Elnur Mirzəyev də “müsavatçı” olması ilə bağlı Müsavat partiyasından pulla saxta sənəd aldığını deyərək bildirib ki, partiyaya üzv olmaq üçün müəyyən miqdarda pul verib: “Konkret rəqəm lazımdırsa, deyim. 1800 manat. Bu hadisə 2011-ci ildə olub. Amma vəsiqəni köhnə tarixlə - 2008-ci ilə verdilər ki, inandırıcı olsun. Özləri də mənə dedilər ki, “2011-ci ilin noyabr ayındakı mitinqlərdə iştirak elə, şəkillərin olsun. O halda mühacirət statusu almağın daha asan olacaq”. Onlar özləri orda ticarətlə məşğuldular. Maskaları cırılanda isə məni güdaza vermək istədilər”.

### Rauf Hüseynov: “Saxta vəsiqə “biznesi”nin bünövrəsini Əli Kərimli qoyub”

Avropa ölkələrindən birində məskunlaşmış və saxta sənəd hazırlamaqda suçlanan Rauf Hüseynov bildirib ki, saxta vəsiqə “biznesi”nin bünövrəsini Əli Kərimli qoyub: “Əli Kərimli arayışları 2500-3000 avroya Hollandiyada yaşayan, “Azadlıq” qəzetinin və “Azərbaycan saatı” verilişinin müxbiri Fikrət Hüseynli ilə əlbir olaraq satırmış”.

### Tural Abbaslı: “Saxta müxalifətçilər və onlara vəsiqə verən partiya sədrləri ciddi şəkildə cəzalandırılmalıdırlar”

Bu arada, sabiq müsavatçı funksioner, “Ağ Partiya”nın sədri Tural Abbaslının sözügedən mövzu ilə bağlı fikirləri maraq doğurur. T.Abbaslı bildirib ki, ümumiyyətlə, saxta vəsiqə verən partiya sədrləri cəzalandırılmalıdırlar. O, siyasət üzərindən qeyri-qanuni biznes quran “liderləri” dırnaqarası müxalifətçi hesab etdiyini deyərək qeyd edib ki, əslində, bu məsələdə günahkar olan iki tərəf var.

Real müxalifətin bu cür fəaliyyət göstərməli olmadığını deyən “Ağ Partiya” sədri əsl müxalifətçinin elə özünün, eyni zamanda, digər normal fəaliyyət göstərən müxalifət qurumlarının olduğunu bildirib. “Bu məsələdə haqsızlıqlar son dövrlər özünü daha qabarıq şəkildə göstərir”-deyə qeyd edən T.Abbaslı “siyasi mühacir” biznesi ilə məşğul olan düşərgə təmsilçilərinin haqsız olduqlarını vurğulayıb. Partiya sədri qəti şəkildə bu işlə məşğul olanların qanun qarşısında cavab verməli olduqlarını vurğulayıb: “Bu baxımdan, hesab edirəm ki, saxta müxalifətçilər və onlara vəsiqə verən partiya sədrləri ciddi şəkildə cəzalandırılmalıdırlar”.

Bütün bunlardan bir daha belə bir nəticəyə gəlmək olar ki, müxalifətin dünəni necə idisə, bu günü də həmin durumu xatırladır. Saxta sənədlərin hazırlanıb paylanması, mühacir biznesləri, belə mənzərənin fonunda daxili çəkişmələrin iyrənc formada təzahürü özlərinə “demokrat” deyənləri xalqın gözündən daha da salır...

***Rəfiqə HÜSEYNOVA***

# Müxalifət hələ də mitinq xəstəliyindən qurtula bilmir

***Qondarma qurum olan “Milli Şura” mayın 5-də qanunsuz aksiya keçirməyi planlaşdırır. Bu isə onu göstərir ki, “Milli Şura” rəhbərliyi sivil mübarizədən və fəaliyyətdən uzaqdır. Söhbət etdiyimiz müsahiblərimiz Əli Kərimlinin, Gültəkin Hacıbəylinin, Cəmil Həsənlinin və digərlərinin qeyri-qanuni fəaliyyət yolu tutduqlarını və bununla xarici maraqlı dairələrin Azərbaycandakı təxribatçı dəstə üzvləri olduqlarını nümayiş etdirdiklərini bildirdilər.***

### “Yurddaş” partiyasının sədri Mais Səfərli: “Müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur”



- Azərbaycanın ana yasasında və qanunlarımızda kütləvi aksiyalarla bağlı müddəalar var. Bildiyiniz kimi, Azərbaycan demokratik hüquqi dövlət olduğu üçün kütləvi aksiyaların keçirilməsi yasaq deyil. Hər bir siyasi partiya, qrup, vətəndaş kütləvi aksiya keçirə bilər. Yəni bu qanunla insanlarımıza, partiyalara, QHT-lərə və bütün vətəndaşlarımıza verilmiş bir hüquqdur. Demək olar ki, bu hüquqdan da ən çox radikal müxalifət düşərgəsində fəaliyyət göstərən şəxslər yararlanırlar. Bu illər ərzində müxalifət düşərgəsini təmsil edən şəxslər müxtəlif aksiyalar keçiriblər. Amma keçirilən bu aksiyalar iflasla nəticələnib. Çünki müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Demək olar ki, müxalifətin ölkə iqtidarının gördüyü böyük işlərə kölgə saldıqlarından, ağa qara dediklərinə görə cəmiyyətin dəstəyindən tamamilə məhrum olublar. Yenidən bu gün müxalifətin icazə verilməmiş, razılaşdırılmamış kütləvi aksiyaların keçirilməsinə meyillənmələri özlərini reklam etməkdən və gündəmə gəlməkdən irəli gəlir. Ümumiyyətlə, müxalifətin bu cür hərəkətləri Azərbaycanın milli maraqlarına ziddir. Azərbaycan demokratik-hüquqi dövlətdir və burda nəinki, kütləvi aksiyalar digər tədbirlərində keçirilməsinə qanun çərçivəsində yol verilir. Bir sözlə, bu gün müxalifətin fikri Azərbaycan haqqında mənfi imic formalaşdırmaq və Azərbaycan dövlətinin əldə etdiyi uğurlara kölgə salmaqdan ibarətdir. Amma müxalifətin bu cür hərəkətlərə əl atması əbəsdir. Çünki dünya dövlətləri Azərbaycanı çox gözəl tanıyır.

### “Kaspi” qəzetinin baş redaktoru İlham Quliyev: “Müxalifət icazəsiz aksiyalarla islahatlara mane olmağa çalışır”

- Azərbaycan hüquqi dövlətdir. Burda bütün siyasi təşkilatların,



ayrı-ayrı vətəndaşların fəaliyyəti qanunlarla tənzimlənir. Azərbaycan qanunvericiliyinə görə də kütləvi aksiyaların keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanlarından icazə alınmalıdır. Azərbaycanda kütləvi toplaşma azadlığı təmin olunur. Zaman-zaman şəhərin müxtəlif yerlərində müxalifətin mitinqləri üçün razılıqlar verilir və bu kütləvi aksiyaları keçirirlər. Amma bəzən təhlükəsizliklə, digər məsələlərlə bağlı problemlər olanda şəhər icra hakimiyyəti aksiyaların keçirilməsinə icazə vermir. Təbii ki, ölkə ərazisində fəaliyyət göstərən ictimai təşkilatlar siyasi partiyalarda bu qanunlara əməl etməlidir. Əgər müvafiq icra hakimiyyəti aksiyanın keçirilməsinə icazə verməyibsə, növbəti müddət üçün müraciət olunmalıdır və müsbət cavab alınana qədər gözlənilməlidir. Belə görünür ki, “Milli Şura” qarşıdurmalarda maraqlıdır, onlar bu yolla divident qazanmağa və gündəmə gəlməyə çalışırlar. Biz bilirik ki, ümumiyyətlə, müxalifətin keçirdiyi bu aksiyalara çox insan gəlmir. Yəni müxalifət tərəfindən keçirilən aksiyalar kütləvi alınmır. Məlum bir kontingent var ki, onların özlərinin elektoratı var. Bu mitinqlərdə, adətən, həmin şəxslərin iştirakı ilə keçirilir. Bir neçə dəfə də müxalifət təmsilçiləri icazəsiz aksiyalar keçirməyə cəhd ediblər, amma heç nəyə nail ola bilməyiblər. Belə bir sual ortaya çıxır ki, son vaxtlar ölkədə sürətli islahatlar aparıldığı, vətəndaşların mənafeyinə xidmət edən sosial islahatlar paketinin həyata keçirildiyi bir şəraitdə birdən-birə mitinqin keçirilməsi hansı zərurətdən doğub? Belə çıxır ki, bu qrup bu islahatların gedişindən narazıdır? Çox ritorik sualdır. Müxalifətin mitinq keçirmək planları ətrafında baş verənlərə, həm də bu prizmadan yanaşmaq lazımdır. Belə görünür ki, bu qrup aparılan islahatların tormozlanmasında maraqlıdır, ölkənin inkişafında maraqlı deyil və bu aksiyaları keçirməklə buna mane olmağa çalışır.

***GÜLYANƏ***

## Bakıda keçirilmiş Formula 1 yarışları Almaniya KİV-lərində geniş işıqlandırılıb

***Almaniyanın “Speed-week” idman jurnalının internet səhifəsində Formula 1 Azərbaycan Qran-Prisi haqqında informasiya yerləşdirilib. İnformasiyada pilotlar və Bakı Şəhər Halqası haqqında ətraflı məlumat verilir.***



Bundan başqa, “Augsburger-Allgemeine”, “WELT”, “Motorsport”, “Speed magazine”, “Abendzeitung München”, “Stuttgarter Zeitung”, “Morgenpost”, “Badische Neueste Nachrichten”, “Motorsport Magazine”, “Motorsport Total”, “Die Rheinpfalz”, “RP-Online”, “RAN”, “Autobild”, “Sportschau”, “Auto Motor und Sport” kimi qəzet və jurnallarda da eyni məzmunlu informasiyalar dərc edilib.

# AXCP sədrinin ağlında problemlər yaranıb

*Əli Kərimlinin erməni maraqlarına hesablanan siyasəti AXCP və “Milli Şura”nı böhranlı duruma salıb*



***Müxalifətdaxili çəkişmələrin gərginləşməsi düşərgədə həlli mümkün olmayan problemlərin yaranmasına gətirib çıxarıb. Xüsusilə də, Müsavat-AXCP qarşıdurması hər iki partiyada ciddi başağrısına çevrilib. Bunun nəticəsində, müxalifətin birgə aksiyalar keçirmək və ümumi müxalifətin birliyinin yaradılması arzuları da nəticəsiz qalır. Mövqe uğrunda savaş və bir-birinə qarşı irəli sürdükləri ittihamlar düşərgədaxili durumun son dərəcə kritik vəziyyət almasına gətirib çıxarıb.***

Ümumiyyətlə, dağıdıcı müxalifətin son illərdəki fəaliyyətinə nəzər salsaq, demək olar ki, bu məxluqlar dünyada analoqu olmayan simasızlardır. Nədəndir ki, qısa zaman kəsiyində çoxsaylı blok və qurumlar yaradıblar, ideya və təkliflərlə çıxış ediblər. Amma yaradılan qurumların ömrü çox qısa olub, irəli sürülən təkliflər isə elə kağız üzərində qalıb. İddialı müxalifət liderləri bir-birindən qisas almaq üçün fərqli mövqe, yol tutublar.

## Müxalifəti yeni fəlakət gözləyir

Baş verənlərə əsasən, onu söyləmək olar ki, hazırkı müxalifət formatı dəyişməyəcəyi təqdirdə, bundan sonra da yaradılacaq blokların adları yalnız kağız üzərində qalan bloklardan fərqlənməyəcək. Günahkarlar isə, təbii ki, Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı və digərləridir. AXCP ilə maraqlarının toqquşması səbəbindən Müsavatın “Milli Şura”nı tərk etməsinin ardınca AMDP sədri İsgəndər Həmidov, “EL” Hərəkatının aparat rəhbəri Zəfər Quliyev və digəri də qurumdan istefa verdi. Bəzi “şura” üzvlərinin seçim arasında qalmasından yararlanmağa çalışan AXCP sədri Ə.Kərimlini kortəbii də olsa, fəallığını artırmağa çalışdı. “Azadlıq” qəzetinin elektron versiyasında “Milli Şura”dan istefa verənlərin “satqın”, “xəyanətkar” adlandırılan silsilə məqalələrin dərc edilməsi Ə.Kərimlinin siyasi fəaliyyətinin başlıca prinsipini təşkil edir. Daha doğrusu, bu məxluq ondan üz çevirənləri tənqid və təhqir etməsini özünün başlıca amalı hesab edir. Hazırkı mərhələdə “Azadlıq” qəzetinin elektron versiyasında alternativ AXCP-nin sədri Razi Nurullayevin, Almaniyada mühacir həyatı yaşayan keçmiş cəbhəçi Azər Məmmədovun, Sahib Kərimlinin, Müasir Müsavat partiyasının sədri Hafiz Hacıyevin, “Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu və digərlərinin şəxsiyyətinin alçaldılması Ə.Kərimlinin düşmənçiliyinin ən yaramaz növü sayıla bilər.

## Əli Kərimli müxalifətin üz qarasına çevrilib

Mövcud reallıqlar təsdiq edir ki, Ə.Kərimlinin anormal fəaliyyəti və rəqiblərini sosial şəbəkələrdəki, muzdlu trolları vasitəsi ilə hədəfə alması heç də cavabsız qalmayır. Misal olaraq alternativ AXCP sədri R.Nurullayevin konkret faktlarla Ə.Kərimlini ifşa etməsini göstərmək olar. R.Nurullayev bildirib ki, AXCP sədri Ə.Kərimli partiyada gənclərə yer verdiyini desə də, əslində, həyatını AXCP-yə həsr edən yaşlı nəsil sıxışdırılır: “Çünki onlar gözlərini açıb reallığı görür, yenilik istəyirlər. Suraxanı şöbəsinin sədrini məcburən uzaqlaşdırdılar və Ə.Kərimlinin cangüdənini təyin etdilər. Partiyada hər şey şəxsi maraqlarla idarə olunur. Rəyasət Heyətində 5 saat iclasda otururduq, əksəriyyətini Ə.Kərimli danışırdı, bunun 80 faizi isə “facebook”da “like”lərin olmasına, paylaşımlara gedirdi. İddılı partiyanın bu qədər xırdalığa getməsi düzgün deyil. Mən partiyada bu cür xırdalıqların əleyhinə olmuşam”.

Müasir Müsavat partiyasının sədri Hafiz Hacıyev isə Ə.Kərimlini siyasi fahişəlikdə günahlandırıb. Bildirib ki, o, kim çox pul verərsə, həmin dairələrin qucaqlarına atılır: “Yəni bu fərdlərə siyasətdə siyasi fahişə, siyasi pozğun deyirlər. Ümumiyyətlə, Ə.Kərimliyə kim pul verirsə, onların qucağında oturur, özü də məmnuniyyətlə. Məsələn, Qərb verəndə Qərbin, Şərq verəndə Şərqin, Şimal da verəndə Şimalın qucağında özünü rahatlayır”. Müasir Müsavat Partiyasının sədri, eyni zamanda, bildirib ki, AXCP sədri barədə mütləq şəkildə ciddi ölçülər götürülməlidir. Çünki bu ünsürə imkan verilərsə, daha böyük xəyanətlərə imza atacaq: “Sirr deyil ki, müxtəlif dövlətlərin Azərbaycanda müəyyən maraqları var və bu maraqları həyata keçirməkdən ötrü Ə.Kərimli kimi adamlardan istifadə edirlər.

Göründüyü kimi, müxalifətin üz qarasına çevrilən AXCP sədri Ə.Kərimli anormal fəaliyyəti ilə rəhbərlik etdiyi partiya ilə yanaşı “Milli Şura”nı da ciddi təhlükə qarşısında qoymaqdadır. Daha doğrusu, hər iki qurum dağılma problemi ilə üzləşməkdədir. Təbii ki, köklü dəyişikliklər baş verməyəcəyi təqdirdə AXCP və “Milli Şura”nın tarixin zibilliyinə atılacağı şübhəsizdir.

***İ.ƏLİYEV***

# “Meydan TV” erməni direktivlərini icra edir!

*Ələkbər Əliyev: “Emin Milli getdi, başqası gəldi - bunlar dekorasiyadır”*

***“Meydan TV”nin yarandığı vaxtdan hazırkı zamana qədər yalnız anti-Azərbaycan xarakterli siyasi qüvvələrin sifariş və təlimatlarını müəyyən qrantlar müqabilində həyata keçirməsi kimsəyə sirr deyil.***

O cümlədən, bu TV-nin zaman-zaman işğalçı Ermənistanın mövqeyinə bəzən sətiraltı, bəzən isə açıq formada dəstək göstərməsi - misal üçün, bir vaxtlar saytında qondarma “DQR”in bayraq və xəritəsini yayması, habelə erməni QHT rəhbərləri ilə əməkdaşlıqları barədə də mediada çoxsaylı faktlar, dəlillər və sübutlar mövcuddur. İş prinsipini yalnız və yalnız Azərbaycan dövlətinin və xalqının maraqları əleyhinə yönəldən “Meydan TV” və onun hazırda rəhbərlikdən istefa vermiş rəhbəri E.Milli fəaliyyətini başqa sferada davam etdirəcəyini desə də, bu qurumun xəyanətkar mahiyyəti dəyişilməmiş qalıb.



## “Meydan TV”nin “Azadlıq radiosu”ndan, “BBC”dən, “Amerikanın səsi”ndən heç bir fərqi yoxdur”

“Meydan TV” ilə bağlı İsveçrədə yaşayan müxalif yönümlü yazar Ələkbər Əliyevin maraqlı fikirləri ictimailəşdirilib. Onun sözlərinə görə, adıçəkilən media qurumu hazırda Qərb dövlətlərinin idarəsi altındadır. Saytın və TV-nin Qərb fondlarının tabeçiliyinə keçdiyini bu günə qədər də yüksələn xətlə, yaxşı maliyyə imkanları ilə fəaliyyət göstərdiyini deyən Ə.Əliyev bildirib ki, saytın Azərbaycanla heç bir orqanik bağı yoxdur. SİTAT: “Diqqət edin bu pisdir, yaxşıdır demirəm. Qiymət vermirəm. Sadəcə olduğu kimi dilə gətirilməsini istəyirəm ki, “Meydan TV”-nin “Azadlıq radiosu”ndan, “BBC”dən, “Amerikanın səsi”ndən heç bir fərqi yoxdur. Bu sayt da digər üç qurum kimi, xaricilərə tabe olan, onların direktivləri ilə oturub-duran, siyasəti tamamilə Qərbdə təyin olunan layihədir. Bunun deyilməməsi ədalətsizlikdir. Bu sıradan bir qrant, hansısa fonddan alınan 3-5 avro deyil, bu qədər məsum deyil yəni, bütün bosslar tamamilə xaricilərdir”.

**“Necə ki, bundan əvvəl Emin Milli “Meydan”-da heç nəyi həll etmirdi, bundan sonra da heç bir azərbaycanlı bu saytda heç nəyi həll etməyəcək...”**

Müxalifət baxışlı yazarın sözlərindən də aydın görünür ki, bu qurum bilavasitə antimilli qüvvə kontekstindən çıxış etməklə yanaşı, o cümlədən, xarici təşkilatların əmr quluna çevrilib. Əbəs deyil ki, bu məsələdə “Qərbdə təyin olunan layihə” fikri özəllik təşkil edir. Nəzərə alarsaq ki, bu gün məhz Qərb ölkələrində erməni lobbisinin fəaliyyəti kifayət qədərdir və lobbinin əsas siyasi maraq dairəsi Azərbaycan dövlətinin yürütdüyü qətiyyətli, güclü siyasətə qarşıdır, bu zaman “Meydan TV”dəki xarici şəxslərin siyasi direktivlərinin müəyyənləşdirilməsində, təlimatların verilməsində də bu həqiqət az rol oynamır. Ə.Əliyev bu amili önə çıxararaq, əslində reallığı tam çılpaqlığı ilə ortaya çıxarmış olub.

Ona görə də, E.Millinin adıçəkilən qurumdan getməsinin mahiyyətcə heç nəyi dəyişmədiyini iddia edən müxalifətçi yazar həmçinin bildirib ki, hətta o TV-yə və sayta rəhbərlik edəndə də asılı vəziyyətdə olub: “E.Milli getdi, başqası gəldi - bunlar dekorasiyadır. Necə ki, bundan əvvəl E.Milli “Meydan”-da heç nəyi həll etmirdi, bundan sonra da heç bir azərbaycanlı bu saytda heç nəyi həll etməyəcək...”

Göründüyü kimi, bu reallıq kifayət qədər isbat edir ki, yalnız “Meydan TV”, deyil, eləcə də digər sosial şəbəkə və s. üzərindən yayımlanan medialar birbaşa Azərbaycan əleyhinə fəaliyyət göstərən siyasi çevrələrin, xüsusilə erməni lobbisinin buyruq qullarıdırlar. Məsələn, Q.Zahidin “Azərbaycan saatı”, Sevinc Osmanqızının “Osmanqızı” kanalı, yaxud Q.Qurbanovun “Freedom Azerbaijan” tipli “layihələri” düşmənlərin mövqeyindən çıxış edir və buna xəyanətdən başqa ad da vermək olmaz.

***Rövşən NURƏDDİNOĞLU***

# UNEC-də əcnəbi tələbələrin Milli Mətbəx festivalı keçirilib



Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) əcnəbi tələbələrin iştirakı ilə Milli Mətbəx festivalı keçirilib. Tələbələrlə iş üzrə prorektor, dosent Səadət Qəndilova UNEC-in əcnəbi tələbələrinin universitetin sosial həyatına inteqrasiyası istiqamətində görülən işlərdən söz açıb. Prorektor əcnəbi tələbələrin təmsil etdikləri ölkələrin tarixinin, mədəniyyətinin, mətbəxinin tanıdılması baxımdan festivalın böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Beynəlxalq əməkdaşlıq departamentinin direktoru Sənnur Əliyev UNEC-də təhsil alan əcnəbi tələbələr barədə məlumat verib. Bildirib ki, UNEC-də 20-yə yaxın ölkədən 245 nəfər xəyanəbi bakalavr, magistr və doktorant təhsil alır. O, UNEC-də əcnəbi tələbənin təşəbbüsü ilə ödənişsiz “Danışıq klubu”nun (Conversation club) da fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Əfqanıstan vətəndaşı olan, Beynəlxalq İqtisadiyyat Məktəbinin I kurs tələbəsi, UNEC-in əcnəbi tələbə klubunun rəhbəri Muqader Vazeri universitetdə yerli və əcnəbi tələbələr arasında sosial inteqrasiyasının yüksək səviyyədə təşkil edildiyindən danışıb. Festivalın keçirilməsinin bu münasibətlərin daha da inkişaf etdirilməsində mühüm rol oynadığını vurğulayıb. Festivalda UNEC-in əcnəbi tələbələri təmsil etdikləri ölkələrin milli mətbəxinə aid yeməklər hazırlayaraq təqdim ediblər. Əcnəbilərin milli geyimlərdə təqdim etdikləri Türkiyə, Almaniya, Çin, Əfqanıstan, Keniya, Nepal və digər ölkələrin təamları müəllim və tələbələr tərəfindən maraqla qarşılanıb. Festival əcnəbi və yerli tələbələrin, müəllimlərin “Yallı” sədaları altında birgə rəqsi ilə davam edib.

# Bakcell “Facebook” üzərindən müraciətlərin cavablandırılmasında yüksək nəticə göstərib




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti abunəçilərin müraciətlərinin “Facebook” üzərindən effektiv cavablandırılmasına görə növbəti dəfə “Socially Devoted” sertifikatı alıb.

Böyük şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqini həyata keçirən “Socialbakers” şirkəti 2019-cu ilin I rübündə daxil olan sorğuların Bakcell tərəfindən 100%-ni cavablandırdığını qeyd edib. Bakcell şirkəti son bir neçə ildə abunəçi müraciətlərini 100% cavablandıraraq ən yüksək nəticəyə nail olub.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti “Bakcell”in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Sosial şəbəkələr məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və abunəçilərin suallarının cavablandırılması baxımından “Bakcell”in vacib kommunikasiya vasitələrindən biridir.

# Bioetik konsepsiyalar və insan hüquqları

***Biologiya və təbabət sahəsində elmi kəşflər terapiya və diaqnostikada görünməmiş tərəqqi vəd etməklə yanaşı, eyni zamanda şəxsiyyətin bütövlüyü və insan hüquqları üçün yeni təhlükələr də yaradır. Yeni elmi nailiyyətlərdən və biotexnologiyalardan həm bəşəriyyətin, həm də ayrı-ayrı fərdlərin ziyanına istifadə etməyə imkan verməyən ümum-hüquqi təminatların yaradılmasının zəruriliyi şəksizdir.***

Müasir elm qloballaşdıqca, onun yeni çağırışlarına olan reaksiyanın da qlobal xarakter alacağını güman etmək məntiqi olar. Elmi tərəqqi milli sərhəd tanımadığından biotəbabətin səmərəli hüquqi standartlarının yaradılması üçün dövlətlərin beynəlxalq səviyyədə əməkdaşlığı tələb olunur. Bu, elə lap əvvəldən dövlətlərin daxili qanunvericiliyi ilə üzləşən və bununla da onların milli hüquqa sonrakı implementasiyasını və inkişafını təmin etməyə imkan verən müxtəlif dövlətlər üçün vahid və məqbul normalar işləyib hazırlamağa imkan verəcək. Barbara Mayer və Uorren Şiblin fikrincə, biotəbabətin vahid beynəlxalq standartlarının işlənilməsi mürəkkəb və ikili prosesdir. Bir tərəfdən, bu, insan hüquqları üzrə beynəlxalq hüququn əsas prinsiplərindən birinə - plüralizmə və mədəni müxtəlifliyə ziddir. Digər tərəfdən, biotəbabətin hüquqi nizamlanması üçün "özül" ola biləcək əsas dəyər və ya prinsip axtarışı yetərincə çətin məsələdir. Lakin onların qənaətincə, yeni elmi çağırışlar heç bir şübhə yeri qoymur - elmin bu sahəsi üçün dəqiq beynəlxalq-hüquqi çərçivələr müəyyən etmək vacibdir.

Məlum olduğu kimi, biotəbabətin əsas hüquqi prinsipləri haqqında ümumi beynəlxalq razılıq əldə olunması üzrə ilk cəhdlər YUNESKO və Avropa Şurası tərəfindən edilmişdir. Bu beynəlxalq təşkilatların himayəsi altında bir sıra mühüm beynəlxalq sənədlər qəbul edilmişdir: İnsan genomu və insan hüquqları haqqında Ümumdünya Bəyannamə, YUNESKO, 1997-ci il Biologiya və təbabətin nailiyyətlərinin tətbiqi ilə əlaqədar insan hüquqlarının və ləyaqətinin müdafiəsi haqqında Konvensiya: İnsan hüquqları və biotəbabət haqqında Konvensiya, Avropa Şurası, 1997-ci il Biologiya və təbabətin nailiyyətlərinin tətbiqi ilə əlaqədar insan hüquqlarının və ləyaqətinin müdafiəsi haqqında Avropa Şurası Konvensiyasına İnsanların klonlaşdırılmasının qadağan edilməsi ilə əlaqədar Əlavə protokol, 1998-ci ilə elə bu konvensiyaya İnsan mənşəli orqan və toxumaların transplantasiyası haqqında 2002-ci il tarixli və İnsanlar üzərində biotibbi tədqiqatlar haqqında 2005-ci il tarixli Əlavə protokollar; insanın genetik məlumatları haqqında Beynəlxalq Bəyannamə, YUNESKO, 2003-cü il; BMT-nin İnsanın klonlaşdırılması haqqında Bəyannaməsi, 2005-ci il; YUNESKO-nun Ümumdünya bioetika və insan hüquqları Bəyannaməsi, 2005-ci il Avropa Şurasının biotəbabət sahəsində hüquqi nizamlamanın əsaslarını müəyyənləşdirən mühüm sənədləri arasında aşağıdakıları qeyd etmək lazımdır: 1998-ci ü tarixli Bioetikanın və biohüququn əsas etik prinsipləri haqqında Barselona Bəyannaməsi və 2000-ci il tarixli Avropa Şurasının Əsas hüquqlar haqqında Xartiyası.

Bütün beynəlxalq sənədlərin biotəbabətlə bağlı əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, onlar biotəbabət və bioetikanın hüquqi tənzimlənməsi prosesində mərkəzi yerlərdən birini "fərdin bütövlüyü" anlayışına verirlər. Belə ki, məsələn, 2000-ci ildə Nitsada qəbul edilmiş Əsas hüquqlar haqqında Avropa Şurası Xartiyası 3-cü maddənin I bəndində hər kəsin fiziki və psixi bütövlüyünə hörmət edilməsi hüququnu təsbit edib. Bundan başqa, həmin maddənin II bəndində biotəbabət sahəsinə aid bir sıra normativ göstərişlər də öz əksini tapıb. Bunlardan birincisi məlumatlandırılmış razılıq qaydasının təmin olunmasının zəruriliyinə aiddir, digər üçü isə yevgenikanı, insan bədənindən və hissələrindən gəlir mənbəyi kimi istifadəni və nəhayət, insanın reproduktiv klonlaşdırılmasını qadağan edir.

Avropa Şurasının 1997-ci il tarixli Biologiya və təbabətin nailiyyətlərinin tətbiqi ilə əlaqədar insan hüquqlarının və ləyaqətinin müdafiəsi haqqında Konvensiya: İnsan hüquqları və biotəbabət haqqında Konvensiyasının I maddəsində qeyd edilir ki, "Konvensiyanın iştirakçıları insan ləyaqətini və fərdi bütövlüyünü müdafiə edir, biologiya və təbabətin nailiyyətlərinin tətbiqi ilə əlaqədar istisnasız olaraq hamının şəxsiyyətin toxunulmazlığına və digər hüquq və əsas azadlıqlarına riayət olunmasına təminat verirlər". YUNESKO-nun 2005-ci il tarixli Ümumdünya bioetika və insan hüquqları haqqında Bəyannaməsinin 8-ci maddəsi fərdin şəxsi bütövlüyünə hörmət göstərilməsi prinsipini təsbit edir.

Əlbəttə ki, digər beynəlxalq-hüquqi aktlar da insanın bütövlüyü hüququnun qorunmasına yönəldilmişdir. Ümumdünya Tibb Assosiasiyasının 1964-cü il tarixli Helsinki Bəyannaməsi: insanlar üzərində biotibbi tədqiqatların aparılması üzrə həkimlər üçün tövsiyələrin 21-ci bəndində aşağıdakı müddəa vardır: ''Sınaqdan keçirilənlərin bütövlüyünün müdafiəsi hüququna riayət olunmalıdır. Sınaqdan keçirilənin şəxsi həyatının müdafiəsi, pasiyent haqqında məlumatların məxfiliyi və elmi tədqiqat iştirakçısının fiziki və psixi bütövlüyünə, habelə şəxsiyyətinə tədqiqatın təsirini minimuma endirmək üçün bütün zəruri tədbirləri görmək lazımdır". ÜST-nin Avropada pasiyentlərin hüquqlarının təminatı sahəsində siyasət haqqında 1994-cü il tarixli Bəyannamənin 1.3 bəndi təsdiq edir ki, "Hər bir insanın öz fiziki və psixi bütövlüyünü, habelə şəxsiyyətinin təhlükəsizliyini qorumaq hüququ var".

Hüquq elmləri doktoru, professor Aytən Mustafayeva yazır: "Beləliklə, biotəbabət sahəsinin beynəlxalq sənədləri insanın bütövlük hüququnun bu sahə üçün xüsusi əhəmiyyətini qeyd edərək, onu birinci plana çəkmişdir. Biotəbabət sahəsində beynəlxalq qanunvericiliyin bütövlük hüququna verdiyi önəmli rol təkcə mövcud fərdlərin deyil, həm də bütün bəşəriyyətin bütövlüyünün və identikliyinin qorunmasının zəruriliyi ilə bağlı real ictimai narahatlığın nəticəsidir.

Fikrimizcə, insan hüquqları üzrə yuxarıda adı çəkilən beynəlxalq sənədlərin ümumi oxşar xüsusiyyəti həm də ondan ibarətdir ki, fərdlərin bütövlüyünün müdafiəsi məqsədi daşıyan həmin sənədlər bu hüququn anlayışı, məzmunu və mahiyyəti ilə bağlı heç bir şərh vermir. Beynəlxalq hüquqda şəxsiyyətin bütovlüyü hüququnun qorunmasına münasibətdə birbaşa təsbitin, rəsmi ümumqəbul olunmuş şərhin və ya izahın olmaması bu hüququn hansısa müəyyən və kifayət qədər işlənilmiş elmi konsepsiyasının olmamasına gətirib çıxarmışdır. Belə ki, məsələn, insan hüquqları üzrə əksər tədqiqatlarda şəxsin fiziki və psixi bütövlüyünə hörmət hüququ ya ümumiyyətlə, heç xatırlanmır, ya da şəxsi toxunulmazlıq və ya şəxsi həyat hüququ çərçivəsində təfsir edilir. Lakin son bir neçə il ərzində hüquqşünasların biotəbabət sahəsinə artan marağı ilə əlaqədar olaraq bu hüququn bəzi aspektlərinə həsr olunuş tədqiqat işləri də aparılmışdır.

Beynəlxalq hüquq elmində bütövlük hüququnun hansısa dəqiq konsepsiyasının olmamasına baxmayaraq, insan hüququ kimi "bütövlük" anlayışı ilə bağlı dəqiq olmasa da, hər halda müəyyən izahlar vermək mümkündür. "İnsanın bütövlüyü" anlayışının ən sadə izahı üçün İ.Kantın fəlsəfəsinə müraciət etməyi məqsədəuyğun sayırıq. S.A.Komarov və İ.V.Rostovşikovun göstərdikləri kimi, onun qəti imperativinin ikinci formuluna uyğun olaraq, "insana heç vaxt vasitə kimi deyil, həmişə özündə məqsəd kimi yanaşmaq lazımdır". Bu iddiadan belə çıxır ki, insanın bütövlüyü - alternativ materialı və hansısa ekvivalenti olmayan kateqoriyadır. Biologiya və təbabət sahələrinə uyğun olaraq, bu, aşağıdakıları bildirir: biz insanı və ya insan qrupunu elmin xeyrinə, yaxud gələcək nəsillərin xəstəliklərini sağaltmaq naminə biotibbi eksperimentlərdə iştirak etməyə cəlb etməklə onların fiziki və psixi bütövlüyünü təhlükə altına sala bilmərik; digər fərdin həyatını xilas etmək naminə hətta cinayətkar və ölüm cəzasına məhkum edilmiş şəxs olsa belə, sağ adamın orqanlarını ona köçürmək üçün götürə bilmərik; gələcək valideynlərin arzularını təmin etmək naminə rüşeymin genetik xüsusiyyətlərini implantasiya öncəsi dəyişdirmək yolverilməzdir.

Göstərilən nümunələr müasir beynəlxalq hüquqda məhdudlaşdırılmış və ya qadağan edilmiş praktika növləridir. Bundan başqa, şəxsiyyətin bütövlük hüququ çərçivəsində Kantın bu prinsipi öz əksini insan bədənindən və ya onun hissələrindən gəlir əldə edilməsinin və insan varlıqlarının klonlaşdırılmasının qadağan olunmasında tapmışdır.

İnsanın təbiətin xəlq etdiyi nadir varlıq, "bədən, ruh və şüur"un sarsılmaz bütövlüyü kimi başa düşülməsi müasir beynəlxalq hüquq sisteminin əsasını təşkil edir. Şübhəsiz, çağdaş cəmiyyətin başlıca nailiyyətlərindən biri bütün insanların nadir və mütləq dəyər kəsb etmələrinin, onların sadəcə, bəşəriyyətin bir hissəsi olduqları üçün əsas hüquqları olduğunun hamılıqla və hər yerdə tanınmasıdır. B.M.Mayer və L.M.Morinin fikrincə, insanın bütövlüyü konsepsiyasının böyük tarixi var. Antik mütəfəkkirlərin, xristian filosoflarının təlimlərindən və İntibah dövrünün alimlərindən başlayaraq, bu konsepsiya insanın təbii hüquqları nəzəriyyəsi ilə sıx birləşmiş, XX əsrin ikinci yarısında biotəbabət etikasında öz əksini tapmışdır. O, əksər dövlətərin konstitusiyalarında təsbit olunaraq, insanın fundamental hüququ statusunu əldə etmiş və biotəbabətin beynəlxalq səviyyədə hüquqi tənzimlənməsinin əsasına çevrilmişdir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Məlum olduğu kimi, insanın bütövlüyü də müasir Avropa bioetikasının vacib prinsipidir və insana sadəcə, fiziki, ruhi və intellektual tam kimi baxmır. İnsan təbii yaşayış mühiti nəzərə alınmaqla qəbul edilir. Fərdin bütövlüyü isə onun bütün yaşantıları əsasında formalaşan və insanın ömür tarixi kimi təsvir edilə bilən onun həyat fəaliyyətinin təbii düzümü olaraq anlaşılır. Belə bir yanaşma fərdi konkret həyati gerçəklikdən ayırmadan, onun şəxsi təcrübəsini, özünüanlamını və özünü eyniləşdirməsini nəzərə almaqla, onu hərəkətlərinin, iradəsinin, prinsiplərinin, baxışlarının və həyat mövqelərinin məcmusunda qavramaq imkanı verir. Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, şəxsiyyətin bütövlük hüququ insanın biotəbabətin inkişafı ilə əlaqədar olan aşağıdakı risk qruplarından müdafiə olunmasını təmin edir:

1. İnsan bədəninin, onun hissələrinin və məhsullarının kommersiyalaşdırılması;

2. İnsanların genetik xüsusiyyətlərindən xəbərdar olmağa əsaslanan diskriminasiyanın yeni formaları;

3. Genetik manipulyasiyalar vasitəsilə insanın instrumentallaşması.

İnsan hüquqları üzrə beynəlxalq hüquqda fərdin bütövlüyünə hörmət, habelə onun fıziki və psixi bütövlük hüququ prinsipi təsbit edilir. Bu, gen texnologiyalarının gücünün hazırkı dövrə nisbətən daha yüksək dərəcədə inkişaf edəcəyi gələcək dövrdə insanın təbiətinə biotibbi müdaxilənin hüquqi nizamlanmasının fundamental əsaslarının bərqərar olunması baxımından əhəmiyyətli tərəqqidir.

Ümumiyyətlə, çağdaş təbabət insan orqanizminin ən dərin strukturlarına - insanın reproduksiya proseslərinə onun psixikasına, genetikasına, hətta ölüm proseslərinə də effektiv təsir imkanlarını fasiləsiz olaraq genişləndirməklə, get-gedə daha təkmil və möhtəşəm olur. Çox vaxt və əsaslı olaraq söyləyirlər ki, bu gün insanın məruz qaldığı əksər tibbi müdaxilələr həddən artıq təcavözkar xarakter daşıyır. Ona görə də insanın yeni, əlavə müdafiə vasitə və mexanizmlərinə ehtiyacı var. Təəssüf ki, Azərbaycan Respublikasında, fikrimizcə, biotəbabət sahəsində insan hüquqlarının əhəmiyyəti bu günə qədər də yetərincə dərk edilmir (hərçənd qeyd etmək lazımdır ki, vəziyyət sürətlə dəyişməkdədir). Ölkəmizdə ənənəvi diqqətçəkən obyektlər insanın ya sosial-iqtisadi, ya da mülki və siyasi hüquqları olmuşdur. Onların əhəmiyyətini qətiyyən azaltmayaraq, hər halda vurğulayaq ki, biotəbabət praktikası bəlkə də ən fundamental, sözün birbaşa mənasında, insanın həyatı adlana biləcək fəaliyyət sahəsidir. Buraya yaşamaq hüququnun özünü, insanın cismani və psixoloji bütövlüyünün qorunması hüququnu, insan ləyaqətinə hörmət etmək hüququnu (bu, təkcə təşəkkül tapmış insan deyil, eləcə də insan rüşeyminə və ölmüş adamın qalıqlarına şamil edilir - zəmanəmizdə həm bu, həm də o biri - tibb preparalları hazırlamaq və ya transplantasiya üçün xammal qismində çox vaxt vasitə kimi qəbul edilir), nəhayət, ləyaqətli ölüm hüququnu da aid etmək qəbul edilmişdir. Bununla yanaşı, bır sıra məsələlər də, tibbi yardım almaq sahəsində birincisi, məqbul keyfiyyəti və ikincisi, insanlar arasında sosial ədaləti və bərabərliyi təmin etmək kimi məsələlər çox ağrılıdır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

## “Heydər Əliyev və milli - mənəvi dəyərlərimiz”

Bu mövzuda YAP Kürdəmir rayon təşkilatı rayon icra hakimiyyəti ilə birgə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünü qeyd edib



Dünən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə YAP Kürdəmir rayon təşkilatının və Kürdəmir rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev və milli -mənəvi dəyərlərimiz” mövzusunda tədbir keçirilibdir. Dəyirmi masa iştirakçıları ilk öncə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül-çiçək dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. Eyni zamanda, tədbir iştirakçıları Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olan şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə YAP Kürdəmir rayon təşkilatının qadınlar şurasının sədri Sevda Hacıyeva açaraq Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının xilaskarı olduğunu bildirib və Azərbaycan qadınlarına qayğısından danışıb.

Kürdəmir rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Əsgərli çıxışında bildirib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gördüyü işlər Azərbaycanı inkişaf yoluna çıxarıb. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz hissəsini təşkil edir.

YAP Kürdəmir rayon təşkilatının idarə heyəti üzvü, Kürdəmir şəhər 6 saylı tam orta məktəbin direktoru Elmira Şıxəliyeva, rayon mərkəzi kitabxanalar sisteminin baş kitabxanaçısı Məhinə Şirəliyeva, rayon Heydər Əliyev Mərkəzinin elmi işçisi Elnarə Bayramova mövzu ətrafında çıxış edərək qeyd ediblər ki, bütün mənalı həyatını xalqına həsr edən Ulu Öndər Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Çıxışlarda o da vurğulanıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının, Azərbaycan qadınlarının qəlbində əbədi yaşayacaq, hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq.

**RƏFİQƏ**

## Nyu-York həbsxanalarında məhbuslar telefonla pulsuz danışacaqlar

Nyu-York həbsxanalarında məhbuslara bundan sonra ölkə hüdudları daxilində telefonla pulsuz danışmağa icazə verilib. Bu barədə məlumat şəhərin meri Bill de Blazionun saytında yerləşdirilib. Meriyanın məlumatına görə, əvvəllər məhbuslar yalnız vəkilə pulsuz zəng edə bilərdilər. Qalan digər zənglərin ilk dəqiqəsi onlara 50 sentə, sonrakı danışığın hər dəqiqəsi isə 5 sentə başa gəlirdi.

Səkkiz mindən çox məhbus olan Nyu-York həbsxanalarından sutkada orta hesabla 25 mindən yuxarı zənglər edilir. Bu da şəhər büdcəsinə ildə 5,5 milyon dollar gəlir gətirir. İndi bu xərcləri şəhərin islah müəssisələri departamenti üzərinə götürəcək. Məhbuslar ölkə daxilində istədikləri yerə zəng vura bilərlər. Danışıqlar hər üç saata 21 dəqiqə olmaqla məhdudlaşır. Hər zəng 15 dəqiqədən çox davam edə bilməz.

## ELAN

Cəfərov Gündüz Mirzəli oğluna məxsus Səbail RPİ tərəfindən verilmiş şəxsiyyət vəsiqəsi, VİSA bank kartı, 99 RG 794 dövlət qeydiyyat nişanlı avtomobilinə aid texniki pasport itdiyi üçün etibarsız sayılır. İtən əşyalar içində 350 AZN vəsait də olub. Tapan şəxs sənədlərin sahibi tərəfindən mükafatlandırılacaq.


# səs

Son səhifə 3 may


# “Əbədiyaşar lider”

YAP Pirallahı rayon təşkilatı rayonun Ağsaqqallar Şurası ilə bu mövzuda tədbir keçirib

***Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı və Pirallahı rayon Ağsaqqallar Şurasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Əbədiyaşar Lider” mövzusunda tədbir keçirib.***



Pirallahı rayon Gənclər Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd edib ki, Azərbaycanın böyük tarixi şəxsiyyəti, Ümummilli Lider Heydər Əliyevin ideyaları 21-ci əsrdə Onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən və Ulu Öndərin yaratdığı Yeni Azərbaycan Partiyası tərəfindən uğurla davam etdirilir.



Pirallahı rayon Ağsaqqallar Şurasının sədri Fazil Məhəmmədov çıxışında rayon ağsaqqallarına göstərilən dövlət qayğısından danışıb, ahılların və təqaüdçülərin sosial-məişət həyatlarının daha da yaxşılaşdırılması üçün atılan davamlı addımlardan bəhs edib.



Respublika Ağsaqqallar Şurası sədrinin birinci müavini Bayram Yusibov çıxışında Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq xüsusiyyətlərini qeyd edərək, bir sıra tarixi və önəmli məqamlara toxunub.

Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədr müavini, millət vəkili Rauf Əliyev ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial, siyasi və iqtisadi siyasətin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd edib: “Ulu Öndər Heydər Əliyev siyasət məktəbinin layiqli yetirməsi olan Prezident İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır”.

Pirallahı rayon icra hakimiyyətinin başçısı Vasif İmanov isə çıxışında qeyd edib ki, Azərbaycanın sosial-iqtisadi inkişafı bu gün, ilk növbədə, insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. “Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi ölkəmizin hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır” - deyə qeyd edən Vasif İmanov əlavə edib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur Ulu Öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür.

Tədbirin bədii hissəsi 168 №-li orta məktəbin şagirdlərinin ifasında kompozisiya ilə davam etdirilib.

Tədbirin sonunda YAP Pirallahı rayon təşkilatının ictimai-siyasi həyatında fərqlənən bir qrup şəxsə Fəxri fərmanlar və partiya sıralarına yeni qəbul olunmuş üzvlərə partiya vəsiqələri təqdim olunub.

**Rövşən NURƏDDİNOĞLU**


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600